HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Vergilər

№ 06 (746) ▪ 12 fevral 2015 | www.vergiler.az | Qiyməti: 40 qəp.

# Bakıda yeni yarımstansiyalar istifadəyə verilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da «Bakıelektrikşəbəkə» Açıq Səhmdar Cəmiyyətinin yeni inşa etdiyi 110 kilovoltluq «Ağ şəhər -1», «Həzi Aslanov», «Kürdəxanı» elektrik yarımstansiyalarının və 35 kilovoltluq 7 yarımstansiyanın açılışında iştirak edib.

Dövlətimizin başçısına 110/35/6 kilovoltluq «Ağ şəhər - 1» yarımstansiyası barədə məlumat verilib. Bildirilib ki, qapalı tipli bu yarımstansiya «Ağ şəhər» layihəsi üzrə tikilən yaşayış komplekslərinin, «Yeni Bulvar»ın və digər qeyri-yaşayış obyektlərinin elektrik təchizatının təmin edilməsi, eləcə də bu ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi məqsədilə inşa olunub. Açıq tipli yarımstansiyalardan xeyli az yer tutan, funksional baxımdan isə böyük üstünlüklərə malik belə qurğular xüsusilə meqapolislər üçün olduqca əlverişlidir. Bütün yarımstansiyalarda olduğu kimi, burada da ətrafda əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılıb. «Bakıelektrikşəbəkə»nin qəza xidməti və digər xüsusi maşınları da işin operativ yerinə yetirilməsinə hərtərəfli imkan yaradır. Həmin avtomobillərdən birinci Avropa Oyunlarının keçirilməsi zamanı da geniş istifadə olunacaq.

Yarımstansiyanın girişində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin ölkəmizin elektroenergetika sisteminin, o cümlədən ötürücü və paylayıcı şəbəkələrin inkişafı üçün həyata keçirdikləri kompleks tədbirlərə dair fotostend yaradılıb. Burada «Bakıelektrikşəbəkə»nin 2006-cı ildə fəaliyyəti bərpa ediləndən bəri reallaşdırdığı layihələr də əksini tapıb. Yarımstansiyada işçilərin normal fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb.

Dövlətimizin başçısına «Ağ şəhər» kompleksinin elektrik təchizatı sxemi nümayiş etdirilib. Qeyd olunub ki, perspektiv planda «Ağ şəhər» layihəsi üzrə tələb olunan gücün qarşılanması məqsədilə yaxın gələcəkdə 110/35/6 kilovoltluq «Ağ şəhər-2», «Ağ şəhər-3» və «Ağ şəhər-4 yarımstansiyalarının inşası, eləcə də həmin energetika qurğularının ikidövrəli 110 kilovoltluq kabel xətti vasitəsilə əlaqələndirilməsi nəzərdə tutulub.

Bildirilib ki, köhnə yarımstansiyanın yerində inşa olunan yeni 110/35/10 kilovoltluq «Həzi Aslanov» yarımstansiyası da müasirliyi ilə diqqəti çəkir. Yarımstansiyanın qidalandırılmasının gücləndirilməsi üçün bu energetika qurğusu 110 kilovoltluq «1-ci Əhmədli» hava xəttindən açılaraq 110 kilovoltluq kabel xətləri vasitəsilə iki mənbə - «Əhmədli» yarımstansiyası və «Bakı İstilik Elektrik Mərkəzi - 1» elektrik stansiyası ilə əlaqələndirilib. Bu layihə çərçivəsində «Həzi Aslanov» və «Ağ şəhər -1» yarımstansiyaları arasında 110 kilovoltluq ikidövrəli kabel xətlərinin çəkilməsi nəzərdə tutulub. «Həzi Aslanov» yarımstansiyasında müasir eleqaz və vakuum tipli avadanlıq quraşdırılıb. Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub.

Qeyd olunub ki, 110/35/6 kilovoltluq «Kürdəxanı» yarımstansiyasının inşasına da kəskin ehtiyac duyulurdu. «Bakı şəhəri və onun ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı» çərçivəsində və yeni yol qovşağının inşası ilə əlaqədar 35/6 kilovoltluq 498 saylı yarımstansiyanın əvəzinə tikilən yeni yarımstansiya Sabunçu rayonu və ətraf qəsəbələrin, eləcə də gələcəkdə inşa olunacaq yaşayış komplekslərinin, istirahət, sosial obyektlərin elektrik enerjisi ilə təminatının yaxşılaşdırılmasında mühüm rol oynayacaq. Bu energetika qurğusu da ən müasir avadanlıqla təchiz edilib və SCADA sisteminə qoşulub.

Prezident İlham Əliyevə yeni inşa olunan 35 kilovoltluq 7 yarımstansiya barədə də məlumat verilib. Bildirilib ki, bu yarımstansiyalar paytaxt və qəsəbələrin dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təchizatı ilə yanaşı, ölkəmizdə beynəlxalq tədbirlərin də yüksək səviyyədə keçirilməsinə hərtərəfli şərait yaradır, dairəvi təchizat sxeminin etibarlılığını daha da artırır. Bu yarımstansiyalar birinci Avropa Oyunları ilə əlaqədar paytaxtın elektrik şəbəkəsində reallaşdırılan mühüm və kompleks tədbirlərin də tərkib hissəsidir. Dövlət başçısına birinci Avropa Oyunları obyektlərinin elektrik təchizatı sxemi də nümayiş etdirilib.

Sonra dövlətimizin başçısı «Ağ şəhər-1» yarımstansiyasını işə salıb.

Prezident İlham Əliyev yeni yarımstansiyada quraşdırılan avadanlıqlarla tanış olub. Qeyd edilib ki, yarımstansiyanın qidalandırılması birinci dairəvi sxemə daxil olan «Liman» və «Həzi Aslanov» yarımstansiyalarından 110 kilovoltluq ikidövrəli kabel xətləri vasitəsilə yerinə yetiriləcək. Yeni yarımstansiyaların işə düşməsi ilə elektrik şəbəkəsində 9 faiz güc artımı yaradılıb.

# «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

*Vergilər Nazirliyinin yaradılmasının 15 illik yubileyinə həsr olunmuş «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda IV Vergi Forumu keçirilmişdir*



Fevralın 9-da öz işinə başlayan Forumun plenar iclasında Azərbaycan Prezidenti Administrasiyasının, Milli Məclisin, Nazirlər Kabinetinin, digər dövlət orqanlarının, Avropa Birliyinin, Dünya Bankının, Beynəlxalq Maliyyə Korporasiyasının, Rusiya, Türkiyə, Litva və Qazaxıstanın vergi xidməti orqanlarının, Milli Elmlər Akademiyasının müvafiq strukturlarının, BMT-nin yerli bankların, qeyri-hökumət təşkilatlarının, sahibkarların ictimai birliklərinin, kütləvi informasiya vasitələrinin nümayəndələri və iş adamları iştirak etmişlər.

Tədbir Vergilər Nazirliyinin 15 illik fəaliyyətinə həsr olunmuş sənədli filmin nümayişi ilə başlamışdır.

Vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov tədbir iştirakçılarını salamlayaraq, yüksək səviyyəli mütəxəssislərin bir araya gəldiyi bu Forumda aparılacaq müzakirələrin hər kəs üçün faydalı olacağını vurğulamışdır: «Bir qədər əvvəl biz Vergilər Nazirliyinin son 15 ildə keçdiyi yolu əks etdirən filmə baxdıq. Filmdən də göründüyü kimi, nazirlik müstəqil qurum olaraq tarix baxımından qısa bir zaman kəsiyində böyük bir inkişaf prosesindən keçmişdir. Ümummilli lider Heydər Əliyevin Vergilər Nazirliyinin müstəqil dövlət strukturu kimi yaradılması barədə verdiyi siyasi qərar ölkəmizin həyatında aparılan köklü və davamlı islahatların dərinləşdiyi və artıq öz müsbət nəticələrini verməyə başladığı bir dövrə təsadüf edirdi. 2000-ci ildə Heydər Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, Vergi Məcəlləsinin layihəsi hazırlandı və geniş müzakirələrdən sonra Milli Məclis tərəfindən qəbul edilərək 2001-ci il yanvar ayının 1-dən qüvvəyə mindi. Ulu öndərin təşəbbüsü ilə vergi sistemində çox ciddi islahatlara başlanıldı: vergi siyasətinin əsas istiqamətləri, vergilərin sayı və dərəcələrinin optimal səviyyəsi müəyyənləşdirildi, ölkədə vergi yükünün aşağı salınması, vergi menecmentinin müasirləşdirilməsi istiqamətində əhəmiyyətli uğurlar əldə olundu».

**Davamı 4-cü səhifədə**

**F.Ə.Məmmədova 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsinin verilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının vergilər naziri Fazil Əsəd oğlu Məmmədova 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi verilsin.

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 9 fevral 2015-ci il*

**Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Vergilər Nazirliyinin aşağıdakı əməkdaşlarına 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi verilsin:

Əhmədov İlqar İsmayıl oğlu - Azərbaycan Respublikası vergilər nazirinin audit və operativ nəzarət sahələri üzrə müşaviri;
Eyyubov Şahin İslam oğlu - Azərbaycan Respublikası Vergilər Nazirliyinin 12 saylı Ərazi Vergilər Departamentinin rəisi;
Məmmədov Elçin Fərrux oğlu - Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin rəisi.

2. Azərbaycan Respublikasının vergilər nazirinin vergi cinayətlərinin ibtidai araşdırılması məsələləri üzrə müşaviri

Namiq Məhi oğlu Quliyevə 3-cü dərəcəli dövlət ədliyyə müşaviri xüsusi rütbəsi verilsin.

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 9 fevral 2015-ci il*

**Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının təltif edilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında vergi sisteminin inkişafında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Vergilər Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli «Vətənə xidmətə görə»**
**Azərbaycan Respublikasının ordeni ilə**

Əliyev Namiq Tofiq oğlu
Əmirov Natiq Ərziman oğlu
Mahmudov Əli Muxtər oğlu

**«Vergi orqanlarında xidmətdə fərqlənməyə görə»**
**1-ci dərəcəli Azərbaycan Respublikasının medalı ilə**

Abdullayev Rəhman Səlèddin oğlu
Bəkirov Haley Əhməd oğlu
Bəşirov Elman Rafiq oğlu
Əhmədov Vidadi Əli oğlu
Hacıyev Qurban Şükür oğlu
Kərimov İlham Vaqif oğlu
Qurbanov Raqif Qurban oğlu
Məmmədov Elçin Şahbala oğlu
Məmmədov Namiq İbiş oğlu
Məmmədzadə Nicat Tahir oğlu

**«Vergi orqanlarında xidmətdə fərqlənməyə görə»**
**2-ci dərəcəli Azərbaycan Respublikasının medalı ilə**

Babaşov Rəcəb Abas oğlu
Cəfərov Nəsimi Əsgər oğlu
Əliyev Xasay Alsəməd oğlu
Həsənzadə Elxan Tofiq oğlu
Hüseynov Kamran Muxtar oğlu
İsayev Vahid İsa oğlu
Nəbiyev Müsavər Nəbi oğlu
Şahbazov Vüqar Balay oğlu

**«Vergi orqanlarında xidmətdə fərqlənməyə görə»**
**3-cü dərəcəli Azərbaycan Respublikasının medalı ilə**

Babayev Fərhad Fərrux oğlu
Bəylərov Elçin Bəylər oğlu
İbrahimov Naib Lətif oğlu
Qasımzadə Ramiz Aydın oğlu
Məmmədova Zülfiyyə Əvəz qızı
Səlimov Telman Səlim oğlu
Şahbazov Faiq İnqilab oğlu
Tağıyev Emin Vaqif oğlu

**Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə**

Hüseynov Riyad Zakir oğlu
Mirsəlimov Mehti Ramiz oğlu

**«Dövlət qulluğunda fərqlənməyə görə»**
**Azərbaycan Respublikasının medalı ilə**

Alimova Nigar Əyyub qızı
Cahangirov Asif Əbülfət oğlu
Əfəndiyev Rahim Veyis oğlu
Həsənov Əli Nazim oğlu
Həsənov Firuz Akif oğlu
Məmmədov Ələkbər Comərd oğlu
Məmmədzadə Zeynalabdin Yunsur oğlu
Rəfiyev Mahir Əhmədağa oğlu
Seyfullayev Qüdrət Vəkil oğlu
Şirinov Natiq Telman oğlu
Vəliyev İlkin Etibar oğlu

**İlham ƏLİYEV,**
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 9 fevral 2015-ci il*

2 | Azərbaycanda beynəlxalq standartlara cavab verən vergi sistemi qurulmuşdur

3 | Xarici ölkələrin vergi administrasiyalarının nümayəndələri ilə görüş

5 | Vergi daxilolmaları ilə bağlı yarana biləcək problemlər minimuma endiriləcək

5 | «Elektron öyrənmə» insan resurslarının inkişafına töhfə verir

# Azərbaycanda beynəlxalq standartlara cavab verən vergi sistemi qurulmuşdur



**Fazil MƏMMƏDOV,**
**vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri**

2015-ci ilin fevral ayının 11-də Vergilər Nazirliyinin yaradılmasının 15 ili tamam olur. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Azərbaycan Respublikasının Vergilər Nazirliyinin yaradılması haqqında 11 fevral 2000-ci il tarixli 281 nömrəli fərman imzalamışdır. Bu tarixdən keçən 15 il Azərbaycanın vergi sisteminin inkişafında, vergi xidmətinin müstəqil struktur kimi formalaşmasında, ölkəmizdə vergi sisteminin müasir standartlar əsasında yenidən qurulmasında və vergi islahatlarının həyata keçirilməsində mühüm dövr olmuşdur.

Ümummilli lider Heydər Əliyevin Vergilər Nazirliyinin müstəqil dövlət strukturu kimi yaradılması barədə verdiyi bu mühüm siyasi qərar ölkəmizin həyatında aparılan köklü və davamlı islahatların dərinləşdiyi və artıq öz müsbət nəticələrini verməyə başladığı bir dövrə təsadüf edirdi. Bu elə bir vaxt idi ki, azad iqtisadi münasibətlər iqtisadiyyatı dirçəldir, əhalinin fəallığını artırır, yeni mülkiyyətçilər və sahibkarlar təbəqəsi formalaşırdı. Yeniləşən iqtisadi mühitin stimullaşdırılması, bazar iqtisadiyyatına keçidin sürətləndirilməsi dövlətin bu prosesdə tənzimləyici rolunu təkmilləşdirmək zərurəti yaradırdı. Məhz belə bir vaxtda ulu öndər Heydər Əliyevin «Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik» fikri dövlətin iqtisadi siyasətinin leytmotivinə çevrildi.

Mərkəzi icra hakimiyyəti orqanı kimi Vergilər Nazirliyinin qarşısına dövlət vergi siyasətini həyata keçirmək, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin etmək və bu sahədə dövlət nəzarətini həyata keçirmək kimi mühüm vəzifələr qoyuldu. Yeni vergi inzibatçılığının formalaşdırılması missiyası da Vergilər Nazirliyinin üzərinə düşürdü və ötən 15 il ərzidə Azərbaycanın vergi orqanları bu missiyanı layiqincə həyata keçirməyə çalışmışlar.

***İslahatlarla zəngin 15 il***

Yeni yaradılmış nazirliyin əsas prioritetləri əlbəttə ki, ilk növbədə uzun illər köhnə inzibati idarəetməyə əsaslanan bir sistemin müasir menecmentlə əvəzlənməsi, ölkəmizdə təşəkkül tapmaqda olan sahibkarlıq subyektləri, vergi ödəyiciləri ilə işin tamamilə başqa səviyyədə qurulması, qanunvericiliyin təkmilləşdirilməsi, inzibatçılığın dəyişdirilməsi idi. Məhz buna görə də ilk illər vergi xidmətinin idarəetmə sisteminin yenidən qurulması və vergi qanunvericiliyi bazasının yaradılması mühüm əhəmiyyət kəsb edirdi. Sonrakı mərhələlərdə vergi inzibatçılığının modernləşdirilməsi və vergi sisteminin texnoloji baxımdan təkmilləşdirilməsi davam etdirilmiş, elektron hökumətin qurulması ilə əlaqədar biznes və dövlət arasında yeni tərəfdaşlıq münasibətləri formalaşmışdır. Ötən 15 il ərzində aparılmış genişmiqyaslı islahatlar, reallaşdırılmış kompleks tədbirlər, konkret hədəflərə yönəlmiş proqramların uğurla yerinə yetirilməsi nəticəsində ölkəmizdə müasir beynəlxalq standartlara cavab verən vergi xidməti yaradılmışdır.

Əlbəttə, bütün bunlar asan əldə olunmamışdır. Ölkəmizin vergi sistemi və inzibatçılığının rəqabətqabiliyyətli olması, vergi menecmentinin müasirləşdirilməsi üçün xeyli zaman və əmək sərf olunmuş, bir sıra layihələr həyata keçirilmişdir.

***Təkmil vergi qanunvericiliyi, səmərəli vergi mühiti və aşağı vergi yükü***

Ölkənin uzunmüddətli strateji inkişaf planlarının uğurla reallaşdırılmasının əsas şərtlərindən biri vergi sisteminin stabilliyi və onun proqnozlaşdırıla bilən olmasıdır.

Məlum olduğu kimi, hər bir vergi sisteminin dayanıqlığı, ilk növbədə, onun fəaliyyəti üçün təkmil qanunvericiliyin və hüquqi-normativ bazanın mövcudluğu ilə şərtlənir. Ölkəmizdə vahid vergi qanunvericiliyinin formalaşdırılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər Nazirlər Kabinetinin 1998-ci il noyabrın 6-da keçirilmiş geniş iclasındakı yekun nitqində dövlət müstəqilliyi əldə olunduqdan sonra vergitutma sahəsində qəbul edilmiş çoxsaylı normativ aktların Azərbaycanın vergi sisteminin ayrı-ayrı sahələrini əhatə etdiyindən vergi sisteminin idarə olunmasında bir sıra problemlərin yaranmasını, vergi qanunvericiliyində mövcud olan boşluqların istər vergi ödəyicilərinin, istərsə də vergi xidməti orqanlarının fəaliyyətində çətinliklər yaratdığını, vergitutmanın qanunvericilik və metodoloji bazasının təkmilləşdirilməsinin zəruriliyini qeyd edərək, qısa müddətdə Vergi Məcəlləsinin layihəsinin hazırlanması ilə əlaqədar hökumətə tapşırıqlar verdi. Bu tapşırıqdan sonra aparılan gərgin işlər 2000-ci ilin iyul ayında Vergi Məcəlləsinin layihəsinin geniş müzakirələrdən sonra Milli Məclis tərəfindən qəbul edilməsi və 1 yanvar 2001-ci il tarixdən qüvvəyə minməsi ilə nəticələndi. Məcəllənin qəbul edilməsi vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış ən vacib addımlardan biri idi və bu, aparılan islahatların genişləndirilməsi üçün bir təkan rolunu oynadı. Ötən illər ərzində Vergi Məcəlləsi iqtisadi reallığın tələblərinə adekvat olaraq təkmilləşdirilmişdir. Məcəllənin müddəalarının böyük bir hissəsi vergi ödəyicilərinin hüquqlarının qorunmasına və təmin edilməsinə xidmət edir.

Ötən 15 ildə iqtisadiyyatda başlanan inkişaf meyillərini sürətləndirmək və sahibkarlığa verilən dövlət dəstəyini genişləndirmək məqsədilə ölkədə biznesin fəaliyyəti üçün cəlbedici vergi mühiti yaradılmış, vergi yükü azaldılmış, vergilərin sayı və dərəcələri optimallaşdırılmış, sahibkarlıq üçün əlverişli iqtisadi mühit formalaşdırılmışdır.

Bu gün Azərbaycanın vergi qanunvericiliyi təkcə fiskal məqsədlərə deyil, həm də iqtisadiyyatın inkişaf etdirilməsi, ayrı-ayrı fəaliyyət sahələrinin inkişafının stimullaşdırılması, investisiyaların və yeni texnologiyaların cəlb olunması və bir sıra məqamlarda sosial sahələrin dəstəklənməsi kimi məqsədlərə də xidmət edir. Fiskal, sosial və tənzimləyici funksiyalara əsaslanan fəal vergi siyasəti Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin mühüm tənzimləmə mexanizmlərindən biridir.

Bunların sırasında 2001-ci ildən kənd təsərrüfatı məhsulları istehsalçılarına uzunmüddətli vergi güzəştlərinin verilməsi, sənayenin innovasiyalar əsasında inkişaf etdirilməsi, mühüm strateji layihələr kimi texnoparkların yaradılması və onların inkişafının stimullaşdırılması üçün vergi qanunvericiliyində güzəştlərin tətbiq edilməsini, fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlərə gəlir vergisi üzrə verilən sosial xarakterli güzəştlər sistemini, ölkə iqtisadiyyatının aparıcı sahələrindən olan bank sektorunun inkişafı üçün ayrı-ayrı zamanlarda verilən vergi tətillərini, eləcə də cəmiyyətin müxtəlif sosial qruplarının gəlirləri arasındakı bərabərsizliyin minimuma endiriməsi üçün verilmiş sosial yönümlü vergi güzəştləri və azadolmalarını və s. qeyd etmək olar.

Hazırda ölkəmizin Avropaya inteqrasiyasının sürətləndirilməsi istiqamətində vergi sahəsində əsas prioritetlərdən biri vergi qanunvericiliyinin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılmasıdır. Qanunvericiliyin uyğunlaşdırılması ilə bağlı ilkin mərhələdə Avropa İttifaqının dolayı vergitutma sahəsində 7 Direktivi üzrə əsas tələbləri təhlil edilərək müəyyənləşdirilmişdir. 2015-ci il yanvarın 1-dən Vergi Məcəlləsinə aksizlərlə bağlı edilmiş son dəyişikliklər də məhz bu uyğunlaşdırma prosesinin tərkib hissəsidir.

Beləliklə, bu gün biz əminliklə söyləyə bilərik ki, ötən 15 il ərzində Azərbaycanda uzunmüddətli strateji inkişaf planlarının məqsədlərinə cavab verən sabit vergi sisteminin qurulmasına nail olunmuşdur. Vergi qanunvericiliyi sahibkarlıq fəaliyyəti üçün cəlbedicidir, vergi yükü rəqabətədavamlıdır.

***Aydın, şəffaf və sadə inzibatçılığa doğru: vergi inzibatçılığında islahatlar***

Vergi inzibatçılığının modernləşdirilməsi vergi öhdəliklərinin yerinə yetirilməsinin biznes üçün sadələşdirilməsinə, vergi orqanları üçün isə vergi nəzarəti prosesində inzibatçılığın müasirləşdirilməsinə əsaslanır.

Bu mühüm vəzifənin həyata keçirilməsi üçün ölkəmizin vergi xidməti əsaslı modernizasiya prosesindən keçmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 sentyabr 2005-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramının (2005-2007-ci illər)» uğurla həyata keçirilməsi nəticəsində vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsinə nail olunmuş, vergidən yayınma halları ilə mübarizə gücləndirilmiş, vergilərin məcburi ödənilməsi sistemi təkmilləşdirilmiş, vergi orqanlarında beynəlxalq standartlara uyğun idarəetmə sistemi inkişaf etdirilmiş, müasir informasiya-kommunikasiya sistemləri yaradılmışdır. 2005-2007-ci illərdə bu Dövlət Proqramının həyata keçirilməsi vergi sistemində geniş diapazonlu texniki imkanlara malik texnoloji bazanın yaradılması ilə nəticələnmişdir.

Vergi inzibatçılığının modernləşdirilməsi prosesi sonrakı illərdə də davam etdirilmiş, vergi xidmətində informasiya texnologiyalarının geniş tətbiqi vergi inzibatçılığının asanlaşmasına, ona çəkilən xərclərin əhəmiyyətli şəkildə azalmasına imkan vermişdir.

Hazırda vergitutmanın müasir dünya təcrübəsində mövcud olan ən mütərəqqi yenilikləri milli vergi sistemində tətbiq edilir. Dünya Bankının qiymətləndirmələrinə görə, ölkəmiz vergi ödəyicilərinin elektron qeydiyyatı sisteminin uğurlu tətbiqi üzrə dünyanın 12 aparıcı dövləti sırasındadır. Vergi inzibatçılığının modernləşdirilməsi nəticəsində bu gün Azərbaycanda sahibkar vergi orqanlarına gəlmədən bütün öhdəliklərini internet üzərindən yerinə yetirə bilir. Vergi bəyannamələrinin təqdim edilməsi, vergi öhdəliklərinin icrası, vergi orqanları ilə təmas imkanı verən bütün proseslər elektronlaşdırılmışdır. Vergi ödəyicilərinin təxminən 90 faizi vergi bəyannamələrini elektron şəkildə təqdim edir.

Mobil texnologiyaların imkanlarına söykənən «Asan İmza» layihəsi mobil telefondan istifadə olunmaqla dünyanın istənilən yerindən sahibkara müqavilələr imzalamağa, vergi öhdəliklərini idarə etməyə və yerinə yetirməyə imkan verir. Ölkəmizin bu təcrübəsi ötən il Avropa Parlamentində də uğurla təqdim edilmişdir. «Asan İmza» və «E-audit» kimi mühüm layihələr yalnız regionda deyil, ümumiyyətlə, postsovet məkanında ilk olaraq məhz Azərbaycanın vergi sistemində reallaşdırılmış və bu, bir çox ölkələrin marağına səbəb olmuşdur.

ƏDV inzibatçılığının təkmilləşdirilməsi və ƏDV-dən yayınma hallarının qarşısının alınması məqsədilə ƏDV depozit hesabının, elektron vergi hesab-fakturalarının tətbiqi, banklarla real vaxt rejimində inteqrasiya (bank hesablarının «onlayn» rejimdə açılması, şəhadətnamə-dublikatın «onlayn» rejimdə göndərilməsi), nəzarət-kassa aparatlarında məsafədənötürmə qurğularının (GPRS sistemi) tətbiqi, vergi orqanları və digər vergi ödəyiciləri ilə elektron yazışma sisteminin - onlayn kargüzarlığın təmin edilməsi, vətəndaşların internet üzərindən videoqəbulunun aparılması, vergilərin elektron qaydada ödənişinin aparılması sisteminin tətbiqi kimi innovativ-texnoloji yeniliklər vergi xidmətini Azərbaycanın ən müasir texnologiyalardan maksimum istifadə edən dövlət qurumu kimi tanıtdırmışdır.



***İnformasiya cəmiyyəti və vergi sistemi: elektron xidmətlər***

Bu sahədə aparılan işlərin əsas istiqaməti vergi ödəyicilərinə xidmət sektorunun genişləndirilməsi, informasiya cəmiyyətinin inkişafı ilə əlaqədar onun yaratdığı imkanların vergi xidmətlərində səmərəli istifadəsinə və vergi sistemində elektron hökumət quruculuğunun tətbiqinin genişləndirilməsinə nail olmaqdır.

Bütövlükdə, son 15 il ərzində vergi ödəyicilərinə xidmət sahəsi vergi sisteminin ən sürətlə inkişaf etdirilən sektoru olmaqla yanaşı, həm də elektron hökumətin elementlərinin praktiki tətbiqi üçün əlverişli müstəvi olmuşdur.

Vergilər Nazirliyi hələ 2003-cü ildə MDB ölkələri arasında ilk dəfə olaraq telefon-məlumat xidməti yaratmış, sonradan bu xidmət ən geniş spektrdə xidmətlər göstərən və Standartlaşma üzrə Avropa Komissiyası («Austrian Standards plus») tərəfindən EN-15838 standartlarına uyğunluğu barədə keyfiyyət Sertifikatına malik Çağrı Mərkəzinə çevrilmişdir.

Vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə 2007-ci ildən regionlarda, xüsusən ayrıca vergi orqanı olmayan iri şəhər və rayonlarda vergi ödəyicilərinə xidmət göstərən 54 mərkəz yaradılmış, müasir avadanlıqlar və sürətli kommunikasiya sistemi ilə təchiz edilmişdir. Burada vətəndaşlara vergi bəyannamələri, vergi qanunvericiliyi və onun tətbiqi barədə məlumat və izahatların verilməsi, sahibkarlıq fəaliyyəti subyektlərinin, fiziki və hüquqi şəxslərin elektron qeydiyyata alınması, bəyannamələrin, hesabat və arayışların göndərilməsi, bankda hesabın açılması və s. kimi məsələlərlə bağlı geniş spektrdə xidmətlər gostərilir.

Ərazi vergi orqanlarına və vergi ödəyicilərinə xidmət mərkəzlərinə gəlmək imkanı olmayan vergi ödəyicilərinə onlar üçün rahat olan yerlərdə xidmət göstərmək üçün yerli vergi orqanları xüsusi xidmət avtomobilləri ilə təchiz olunmuşlar.

Bu gün Azərbaycanın vergi sistemi dünyanın ən qabaqcıl ölkələrində tətbiq olunan əksər vergi xidmətlərini vergi ödəyicilərinə təqdim edir. Hazırda Vergilər Nazirliyi vergi ödəyicilərinə 59 növ elektron xidmət göstərir. Bu, respublikamızda dövlət orqanları tərəfindən göstərilən ən geniş elektron xidmətlər toplusudur. Vergilər Nazirliyi inzibatçılıq sahəsində və elektron xidmətlərin geniş tətbiqi prosesini bundan sonra da fəal şəkildə davam etdirməklə korrupsiya hallarına qarşı mübarizədə mühüm rol oynayan məmur-vətəndaş təmaslarını minimuma endirmək niyyətindədir.

***Bizneslə dialoq: partnyorluq münasibətlərinin qurulması***

Vergilərin könüllü ödənilməsi sisteminin genişləndirilməsi, bu məqsədlə müasir iqtisadi münasibətlər şəraitində bizneslə tərəfdaşlıq və partnyorluq münasibətlərinin qurulması hazırda vergi orqanlarının fəaliyyətinin prioritet istiqamətlərindəndir.

Vergilər Nazirliyi yaradıldıqdan sonra aparılan islahatların mühüm bir istiqaməti də vergilərin məcburi yığılmasından könüllü ödəniş sisteminə keçidi təmin etmək üçün müvafiq tədbirlərin görülməsi olmuşdur.

Sosial-iqtisadi inkişafın indiki mərhələsində ölkədə vergilərin könüllü ödəniş sisteminin inkişaf etdirilməsinin, vergi mədəniyyətinin yüksəldilməsinin, vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin sivil və şəffaf əsasda qurulmasının, qarşılıqlı etimad mühitinin formalaşdırılmasının aktuallığı daha da artmışdır.

Müasir vergi inzibatçılığının qurulması, sabit qanunvericiliyinin formalaşdırılması, vergi öhdəlikləri və onların icrası sisteminin şəffaflığı, səmərəli apelyasiya sisteminin mövcudluğu, sahibkarlığın inkişafını dəstəkləyən vergi siyasətinin həyata keçirilməsi, vergi yükünün azaldılmasına yönələn vergi islahatları - bütün bunlar əlverişli biznes mühitinin formalaşmasına dəstək vermək istiqamətində Azərbaycanın vergi xidməti tərəfindən atılan addımlardır. Heç şübhəsiz ki, həyata keçirilmiş bu islahatlar bizneslə qurulan yeni tərəfdaşlıq modelinin formalaşmasına öz töhfəsini verəcəkdir.

***Rəqabətqabiliyyətli vergi sistemi***

Azərbaycanın vergi sisteminin və inzibatçılığının rəqabətqabiliyyətliliyinə nail olunması üçün vergi xidmətində mütərəqqi beynəlxalq təcrübənin tətbiqi məsələləri daim diqqətdə saxlanılır. Bu məqsədlə Vergilər Nazirliyinin beynəlxalq əlaqələri genişləndirilir.

Ölkəmizdə rəqabətli işgüzar mühitin yaradılması işinin iştirakçısı olan vergi orqanları qarşısında vergi ödəyiciləri ilə konstruktiv dialoq qurmaq, yaranmış problemlərin aradan qaldırılmasına diqqətlə yanaşmaq, biznesə və vətəndaşlara vergi məsələlərində və innovasiyalarda yardım etmək vəzifəsi durur.

Bu baxımdan, beynəlxalq əlaqələrin inkişaf etdirilməsi, mütərəqqi beynəlxalq təcrübənin öyrənilərək ölkəmizə gətirilməsi, digər ölkələrin vergi orqanları, habelə beynəlxalq və regional təşkilatlarla işgüzar əlaqələrin qurulması, vergi məsələləri üzrə beynəlxalq müqavilələrin bağlanması Vergilər Nazirliyinin prioritet fəaliyyət istiqamətlərindəndir.

Azərbaycanın beynəlxalq inteqrasiya siyasətinə uyğun olaraq, Vergilər Nazirliyi xarici ölkələrin vergi orqanları ilə həm ikitərəfli, həm də çoxtərəfli formatda əlaqələr qurur. Vergilər Nazirliyi dünyanın vergitutma sahəsində əksər aparıcı və nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində, habelə Avropadaxili Vergi Administrasiyaları Təşkilatının İcraiyyə Komitəsinin üzvü kimi dünyada mövcud olan ən mütərəqqi təcrübələrin öyrənilməsi və ölkəmizdə tətbiq olunması, insan resurslarının peşəkarlıq səviyyəsinin artırılması üçün bu təşkilatların verdiyi imkanlardan maksimum yararlanmağa çalışır.

**Davamı 3-cü səhifədə**

# Xarici ölkələrin vergi administrasiyalarının nümayəndələri ilə görüş

Fevralın 9-da vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov Vergilər Nazirliyinin yaradılmasının 15-ci ildönümünə həsr olunmuş IV Vergi Forumunda iştirak etmək üçün Azərbaycana gəlmiş Qazaxıstan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin sədri Daulet Yerqojinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dost ölkənin vergi xidmətinin nümayəndələrini salamlayan Fazil Məmmədov Vergilər Nazirliyinin yubiley tədbirlərində iştirak etmək üçün ölkəmizə səfər etmiş qonaqlara minnətdarlığını bildirərək iki ölkə arasında işgüzar münasibətlərin sürətlə inkişaf etdiyini vurğulamışdır. Son illər yüksək iqtisadi artıma nail olan Azərbaycanla böyük iqtisadi potensiala malik Qazaxıstanın vergi xidmətləri arasında mövcud olan sıx əməkdaşlıqdan məmnunluğunu ifadə edən vergilər naziri qarşılıqlı təcrübə mübadiləsinin daha da dərinləşdirilməsinin, mübadilə proqramlarının davam etdirilməsinin zəruriliyini qeyd etmişdir.

Qazaxıstanın Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin sədri Daulet Yerqojin Vergilər nazirliyinin rəhbərliyini və bütün kollektivini nazirliyin yaradılmasının 15-ci ildönümü münasibətilə təbrik etmiş, qısa zaman ərzində Azərbaycanın vergi orqanlarının mühüm nailiyyətlər əldə etdiyini bildirmişdir. O, bu nailiyyətləri yaxından izlədiklərini, bir sıra sahələrdə təcrübə mübadiləsi aparılmasında, ölkəmizdə tətbiq edilən innovativ yeniliklərin öyrənilməsində maraqlı olduqlarını vurğulamışdır. D.Yerqojin Azərbaycanın Vergilər Nazirliyinin təşkil etdiyi Vergi Forumunda iştirakı böyük məmnuniyyətlə qəbul etdiklərini, Forumun onlarda böyük təəssürat yaratdığını bildirmişdir.

Fevral ayının 10-da vergilər naziri Fazil Məmmədov IV Vergi Forumunda iştirak etmək üçün Azərbaycana gəlmiş Rusiya Federasiyası Federal Vergi Xidməti rəhbərinin müavini xanım Natalya Zavilova və Türkiyə Respublikası Maliyyə Nazirliyinin Gəlir İdarəsinin rəhbəri Adnan Ertürk və onun müavini Necmi Keskinsoyla görüşmüşdür.

Dost və qardaş ölkələrin vergi xidmətlərinin nümayəndələrini salamlayan Fazil Məmmədov dövlət başçıları arasındakı dostluq və qardaşlıq münasibətlərinin hökumətlər və ayrı-ayrı qurumlar arasında əməkdaşlığın inkişafına da müsbət təsir göstərdiyini qeyd etmiş, bu əlaqələrin gələcəkdə daha da inkişaf edəcəyinə ümidvar olduğunu bildirmişdir.

F.Məmmədov son illərdə Rusiya və Azərbaycanın vergi xidmətləri arasında əməkdaşlığın, vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı təcrübə mübadiləsinin ölkəmiz üçün müsbət nəticələr verdiyini, bu baxımdan mövcud əlaqələrin daha da dərinləşdirilməsinin zəruriliyini qeyd etmişdir.

Rusiya Federasiyası Federal Vergi Xidməti rəhbərinin müavini Natalya Zavilova Vergilər Nazirliyinin rəhbərliyini və bütün kollektivini nazirliyin yaradılmasının 15-ci ildönümü münasibətilə təbrik etmiş, qısa zaman kəsiyində Azərbaycanın vergi orqanlarının mühüm nailiyyətlər əldə etdiyini bildirmişdir. Rusiyanın Azərbaycanı hər zaman strateji tərəfdaş hesab etdiyini bildirən N.Zavilova gələcəkdə ikitərəfli münasibətləri daha da inkişaf etdirmək üçün müvafiq dövlət qurumlarının nümayəndələri arasında görüşlərin keçirilməsinin zəruriliyini diqqətə çatdırmışdır.

Türkiyə Respublikası Maliyyə Nazirliyinin Gəlir İdarəsinin rəhbəri Adnan Ertürk səmimi qəbula görə təşəkkürünü bildirərək, qısa zaman kəsiyində böyük inkişaf yolu keçmiş Azərbaycanın vergi xidməti orqanlarına yubiley təbriklərini çatdırmış, Vergi Forumunda iştirakı məmnuniyyətlə qəbul etdiklərini, Forumun onlarda böyük təəssürat yaratdığını bildirmişdir.

Türkiyənin bütün dövlət qurumlarında Azərbaycana xüsusi münasibət bəsləndiyini, bir çox türk iş adamlarının buraya gəlmək istədiyini vurğulayan qonaq ölkəmizdə iqtisadiyyatın sürətlə inkişaf etməsindən, ən müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqindən o məmnunluğun ifadə edərək, bu sahələrdə hər iki ölkənin əməkdaşlıq üçün böyük potensialı olduğunu diqqətə çatdırmışdır.

Görüşlər zamanı vergilər sahəsində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri də müzakirə edilmişdir.

# Azərbaycanda beynəlxalq standartlara cavab verən vergi sistemi qurulmuşdur

**Əvvəli 2-ci səhifədə**

Ölkəmiz vergi sahəsində bir çox beynəlxalq təşəbbüsləri dəstəkləyir. Azərbaycan hələ 2003-cü ildə «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» OECD-nin və Avropa Şurasının birgə Konvensiyasına qoşulmuşdur. 2014-cü ilin may ayında həmin Konvensiyaya düzəlişlər edilməsi haqqında Protokolun imzalanması zamanı İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) baş katibi cənab Anxel Qurria ölkəmizin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirmişdir.

Beynəlxalq vergi siyasətinin həyata keçirilməsində çox mühüm məsələlərdən biri vergilərə dair beynəlxalq müqavilələrdir. İkiqat vergitutmanın aradan qaldırılması barədə beynəlxalq sazişlərin imzalanması, bir tərəfdən, ölkədə əlverişli investisiya mühitinin yaradılmasına birbaşa təsir göstərir, digər tərəfdən, vergidən yayınma hallarının qarşısının alınması məqsədilə vergi orqanları arasında qarşılıqlı yardım göstərilməsi üçün əlavə imkanlar yaradır.

Beləliklə, ötən 15 ilə nəzər salarkən, Azərbaycan vergi xidmətinin qarşısında duran əsas vəzifələrin yerinə yetirildiyini söyləmək olar. Aparılan islahatlar, həyata keçirilən kompleks tədbirlər vergi xidmətinin fiskal funksiyalarının da yerinə yetirilməsinə müsbət təsir göstərmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi strategiyanın uğuru, eyni zamanda ölkə iqtisadiyyatının dinamik və davamlı inkişafı, eləcə də yuxarıda qeyd olunan amillərin nəticəsidir ki, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların həcmi son 15 il ərzində 14 dəfəyədək, 2000-ci ildəki 510,4 mln. manatdan 2014-cü ildə 7 mlrd. 113,6 mln. manata qədər artmışdır. Bu zaman qeyri-neft-qaz sektorundan daxilolmalar 14,4 dəfə artaraq 299,2 mln. manatdan 4306,5 mln. manata, regionlardan daxilolmalar isə 14,8 dəfə artaraq 40 mln. manatdan 591,8 mln. manata çatmışdır.

Xüsusilə vurğulamaq lazımdır ki, bu nailiyyətlərin təməlində, ilk növbədə, xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti, bu siyasətin davamçısı, ölkə başçısı cənab İlham Əliyevin birbaşa rəhbərliyi və tapşırıqları əsasında həyata keçirilən uğurlu islahatlar, vergi orqanlarına göstərilən dövlət dəstəyi, böyük zəhmət və gərgin iş dayanır.

***Bilik iqtisadiyyatına əsaslanan müasir vergi inzibatçılığının inkişaf etdirilməsi***

Qarşıda vergi xidmətini yeni çağırışlar gözləyir. Bu gün sərbəst bazar iqtisadiyyatı institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi nəticəsində ölkəmiz yeni bir inkişaf mərhələsinə qədəm qoyub. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılmasıdır.

«Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası ölkə iqtisadiyyatı qarşısında dünyanın inkişaf etmiş dövlətləri sırasına daxil olmaq kimi mühüm bir vəzifə müəyyənləşdirmişdir. Bu isə yüksək rəqabət qabiliyyətli, yeni texnologiyalara əsaslanan innovasiya yönümlü bilik iqtisadiyyatının yaradılmasını zəruri edir. Konsepsiyanın icrası məqsədilə Vergilər Nazirliyi tərəfindən 2013-2020-ci illər üçün Strateji Plan təsdiq edilmişdir.

Strateji Planda informasiya texnologiyaları təməlli və bilik menecmentinə əsaslanan müasir vergi inzibatçılığının inkişaf etdirilməsi, onun şəffaflığının və yüksək səmərəliliyinin təmin edilməsi, transfert qiymətlərinin tətbiqi mexanizminin yaradılması, nağdsız ödənişlərin stimullaşdırılması, elektron auditin, elektron ticarətə nəzarətin təmin olunması, vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin daha da genişləndirilməsi, ƏDV-nin tətbiqi mexanizminin təkmilləşdirilməsi, daxildə istehsal olunan və idxal edilən mallara aksizlərin tətbiqi mexanizminin təkmilləşdirilməsi, vergi dərəcələrinin optimallaşdırılması, vergitutma bazasının genişləndirilməsi, vergidən yayınma risklərinin qiymətləndirilməsi və nəzarət məqsədləri üçün seçim mexanizmlərinin təkmilləşdirilməsi prioritet istiqamətlər kimi müəyyənləşdirilmişdir.

Müasir vergi administrasiyasında analitik potensialın gücləndirilməsi, yeni analitik və informasiya texnologiyalarından sərbəst istifadə etməyi bacaran yüksək biliklərə malik kadrlar vergi orqanlarının dayanıqlı inkişafını və dövlət qarşısında öz funksiyalarının layiqincə yerinə yetirilməsini təmin edir. Bu baxımdan, Vergilər Naziriyi insan resurslarının təkmilləşdirilməsi işini daim davam etdirəcək. Bu məqsədlə artıq Avropa Birliyi, o cümlədən Fransa və İspaniya vergi administrasiyaları ilə birlikdə müvafiq tvinninq layihəsinin də reallaşdırılmasına başlanmışdır.

Vergi inzibatçılığı sahəsində İT innovasiyalarının təşviqinə daim dəstək verilməsi, bu istiqamətdə innovasiya yönümlü intellektual texnologiyaların inkişafı da yaxın gələcəkdə qarşımızda duran vəzifələr sırasındadır.

Heç kimə sirr deyil ki, bir çox dövlətlər dünyanı bürümüş böhranların fəsadlarını öz üzərində hiss edir, büdcə və sosial sahələrdə ciddi çətinliklərlə üzləşirlər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü iqtisadi strategiya bu böhranların yaratdığı problemlərin ölkəmizə təsirlərini azaltmağa, vətəndaşlarımızı onun neqativ təsirlərindən qorumağa, dövlətimizin sosial-iqtisadi inkişafının sabitliyinin saxlanılmasına zəmanət verir. Bu strategiyanın davamlı olması üçün dövlət büdcəsinin gəlirləri artmalıdır və şübhə yoxdur ki, ölkədə fəaliyyət göstərən sahibkarlar və vergi orqanları bu vəzifənin icrasını, ölkəmizin iqtisadi qüdrətinin ildən-ilə daha da artmasını təmin etmək üçün bütün imkanlarını səfərbər edəcəklər.

# Vergilər Nazirliyinin əməkdaşları ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etmişlər



Fevralın 11-də Vergilər Nazirliyinin yaradılmasının 15-ci ildönümü və vergi xidməti əməkdaşlarının peşə bayramı münasibətilə vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov başda olmaqla, nazirliyin və tabeli qurumların nümayəndələri Fəxri xiyabana gələrək, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etmiş, məzarı önünə əklil qoymuşlar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla yad olunmuş, məzarı üzərinə gül dəstələri düzülmüşdür.

Sonra nazirliyin kollektivi Şəhidlər xiyabanını ziyarət etmiş, «Şəhid abidəsi» önünə əklil qoymuş, şəhid məzarlarının üzərinə al qərənfillər düzmüşlər.

# Çağrı Mərkəzinə daxil olan müraciətlər

*Yanvar ayında Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzinə 24.644 və ya 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 8,7% çox zəng daxil olmuşdur.*

Canlı əlaqə zamanı 26.037 müraciət cavablandırılmışdır. Onlardan 38%-i Vergi Məcəlləsi (vergi nəzarəti tədbirləri, şəxsi hesab vərəqəsi, vergi orqanlarının fəaliyyəti, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirləri, vergi agenti və s.), 20,2%-i Vergilər Nazirliyinin səlahiyyətlərində olan, lakin Vergi Məcəlləsi ilə tənzimlənməyən məsələlər (nazirliyin internet səhifələri, elektron xidmətlərin proqram təminatları, elektron imza, əmək müqavilələri, işə qəbul və s.), 19%-i gəlir vergisinin, 13,4%-i sadələşdirilmiş verginin hesablanması, ödənilməsi və bəyannamənin təqdim edilməsi, qalanları isə digər vergilər barədə olmuşdur.

Ay ərzində vergi ödəyiciləri tərəfindən 2772 dəfə vergi borcu, 1638 dəfə vergi növləri barədə məlumat əldə etmək üçün səsli menyu xidmətindən istifadə edilmişdir. Vergi ödəyicilərinə 117.805, o cümlədən 115.323 qısa, 2482 ikitərəfli mesaj xidməti göstərilmişdir.

Yanvar ayı ərzində Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə 387.264 daxilolma qeydə alınmışdır.

# Yanvar ayında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 685 miyon 899,4 min manat vəsait daxil olmuşdur

*Bununla da proqnoz tapşırığına 103,3% əməl edilmişdir.*




Bu məbləğin 44,6%-i mənfəət vergisinin, 24,7%-i əlavə dəyər vergisinin, 9,5%-i fiziki şəxslərin gəlir vergisinin, 7,8%-i aksizlərin, 2,9%-i sadələşdirilmiş verginin, 10,5%-i isə digər vergilərin payına düşür.

Qeyri-neft-qaz sektoru üzrə 344 milyon 705,6 min manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,2% çoxdur.

Hesabat dövründə respublika üzrə 7114 vergi ödəyicisi qeydiyyata alınmışdır. 1 fevral 2015-ci il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 616.242 olmuşdur ki, bu da 2014-cü ilin 1 fevral tarixinə qeydiyyatda olan vergi ödəyicilərinin sayından 13,1% çoxdur.

2015-ci ilin ilk ayında respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 95,1% təşkil etmişdir.

# IOTA-nın növbəti iclası

İspaniya Krallığının paytaxtı Madrid şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) İcraiyyə Şurasının 95-ci iclası keçirilmişdir.

Şuraya üzv dövlətlərin (Niderland Krallığı, Avstriya, Azərbaycan Respublikası, Çexiya Respublikası, Finlandiya, Fransa, İrlandiya, Rumıniya, İspaniya) vergi administrasiyaları nümayəndələrinin iştirak etdikləri iclasda ilk olaraq IOTA-nın 2012-2017-ci illər üzrə Strategiyasının icrası vəziyyəti müzakirə edilmiş, təşkilatın Nizamnaməsinə yenidən baxılması qərara alınmışdır. İclas zamanı IOTA prezidenti seçkilərinin tarixinin dəyişilməsinin mümkünlüyü məsələsinə də baxılmışdır.

İclasın əsas müzakirələrindən biri beynəlxalq maliyyə şəbəkələrinin rəhbərləri ilə əməkdaşlıq təşəbbüsü olmuşdur.

İclasda Azərbaycan vergilər nazirinin Beynəlxalq münasibətlər, vergi ödəyicilərinə xidmət və tədris sahələri üzrə müşaviri Ələkbər Məmmədov iştirak etmişdir.

# OECD-də təcrübə mübadiləsi

*İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən (OECD) İtaliya Respublikasının Polis Akademiyasında «Maliyyə cinayətlərinin istintaqının aparılması» mövzusunda təcrübə mübadiləsi keçirilmişdir.*

Dünyanın 19 ölkəsindən 37 nümayəndənin iştirak etdiyi tədbir iqtisadi cinayətlər və onların araşdırılmasına həsr olunmuş 15 modul üzərində qurulmuşdur. Hər bir modulun müzakirəsi zamanı Kanada, Danimarka, Norveç, Almaniya, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları, Avstraliya, İtaliya və Hollandiyanın maliyyə, vergi, prokurorluq orqanlarından dəvət edilmiş mütəxəssislər tərəfindən təqdimatlar edilmişdir.

Tədbirdə ölkəmizi Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşı Emin Vəliyev təmsil etmişdir.

# «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər»

**Əvvəli 1-ci səhifədə**



Vergilər naziri vergi sisteminin inkişaf mərhələsindən danışarkən diqqəti sonrakı illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkənin vergi xidmətinin modernləşdirilməsi istiqamətində aparılan islahatlara yönəltmişdir: «Bu islahatların həyata keçirilməsi nəticəsində vergi inzibatçılığının modernləşdirilməsinə başlandı və vergi sistemi texnoloji baxımdan təkmilləşdirildi, «elektron hökumət»in qurulması ilə əlaqədar biznes və dövlət arasında yeni tərəfdaşlıq münasibətlərinin formalaşdırılmasına başlanıldı. Həyata keçirilən genişmiqyaslı islahatlar, reallaşdırılmış kompleks tədbirlər, konkret hədəflərə yönəlmiş proqramların uğurla yerinə yetirilməsi nəticəsində qısa müddətdə ölkəmizdə beynəlxalq standartlara cavab verən müasir vergi xidməti yaradıldı».

Fazil Məmmədov Vergilər Nazirlyininin ötən 15 illik fəaliyyətinə nəzər salaraq bir sıra məqamları xüsusi qeyd etmişdir. Bildirilmişdir ki, Azərbaycanda ölkəmizin uzunmüddətli strateji inkişaf planlarının məqsədlərinə cavab verən sabit vergi sistemi formalaşdırılmışdır. Vergi qanunvericiliyi sahibkarlıq fəaliyyəti üçün cəlbedicidir, vergi yükü rəqabətə davamlıdır.

Azərbaycanda çevik və səmərəli vergi siyasətinin həyata keçirlməsi üçün vergi qanunvericiliyinin mükəmməl bazasının yaradılmasının əsas şərt olduğunu vurğulayan vergilər naziri demişdir: «Bu qanunvericilik təkcə fiskal məqsədlərə deyil, həm də iqtisadiyyatın inkişaf etdirilməsi, ayrı-ayrı fəaliyyət sahələrinin stimullaşdırılması, investisiyaların və yeni texnologiyaların cəlb olunması və sosial sahələrin dəstəklənməsi kimi funksiyaları yerinə yetirir.

Azərbaycanın vergi xidməti əsaslı modernizasiya prosesindən keçmiş, vergi sisteminin geniş diapazonlu texniki imkanlara malik texnoloji bazası yaradılmışdır. Nəticə etibarilə, ölkəmizdə beynəlxalq standartlara cavab verən vergi inzibatçılığı formalaşdırılmış, informasiya texnologiyalarının geniş tətbiqi vergi inzibatçılığının asanlaşmasına, çəkilən xərclərin əhəmiyyətli şəkildə azalmasına imkan vermişdir.

Azərbaycanın vergi sistemi dünyanın ən qabaqcıl ölkələrində tətbiq olunan əksər vergi xidmətlərini vergi ödəyicilərinə təqdim edir».

Qeyd edilmişdir ki, hazırda Vergilər Nazirliyi vergi ödəyicilərinə 59 növ elektron xidmət göstərir. Bu, respublikamızda dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən ən geniş elektron xidmətlər toplusudur.

Bu gün Azərbaycanda sahibkar vergi orqanlarına gəlmədən bütün öhdəliklərini internet üzərindən yerinə yetirə bilir. Vergi bəyannamələrinin təqdim edilməsi, vergi öhdəliklərinin icrası, vergi orqanları ilə təmas imkanı verən bütün proseslər elektronlaşdırılmışdır. Vergi ödəyicilərinin təxminən 90 faizi vergi bəyannamələrini elektron şəkildə təqdim edir.

Vergilər naziri son bir neçə ildə ƏDV inzibatçılığının təkmilləşdirilməsi istiqamətində atılan addımları diqqətə çatdırmışdır: «ƏDV depozit hesabının, elektron vergi hesab-fakturalarının tətbiqi həyata keçirilmiş, banklarla real-vaxt rejimində inteqrasiya, nəzarət-kassa aparatlarında məsafədənötürmə qurğularının tətbiqi, vergi orqanları və vergi ödəyiciləri ilə elektron yazışma sisteminin - onlayn kargüzarlığın təmin edilməsi, vergilərin elektron qaydada ödənişinin aparılması sisteminin tətbiqi kimi innovativ-texnoloji yeniliklər tətbiq olunmuşdur».

Fazil Məmmədov çıxışında vergitutmanın müasir dünya təcrübəsində mövcud olan ən mütərəqqi yeniliklərin milli vergi sistemində tətbiqi məsələsinə xüsusi yer vermişdir: «Dünya Bankının qiymətləndirmələrinə görə, ölkəmiz vergi ödəyicilərinin elektron qeydiyyatı sisteminin uğurlu tətbiqi üzrə dünyanın 12 aparıcı dövləti sırasındadır. Son bir neçə ildə yeni nəsil texnologiyalara söykənən «Elektron audit» və «Asan imza» kimi mühüm layihələr həyata keçirilmişdir. Ölkəmizin «Asan imza» təcrübəsi ötən il Avropa Parlamentində də uğurla təqdim edilmişdir».

Aparılan islahatlar, həyata keçirilən kompleks tədbirlər vergi xidmətinin əsas funksiyalarının yerinə yetirilməsinə müsbət təsir göstərmişdir. Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi strategiyanın uğuru, ölkə iqtisadiyyatının dinamik və davamlı inkişafı, bu inkişafa adekvat olan vergi inzibatçılığının formalaşdırılması nəticəsində dövlət büdcəsinə vergilərin və digər daxilolmaların həcmi son 15 il ərzində 14 dəfəyədək, qeyri-neft-qaz sektorundan daxilolmalar 14,4 dəfə, regionlardan daxilolmalar isə 14,8 dəfə artmışdır.

Vergilər naziri Forum iştirakçılarına müraciət edərək bu tədbirin əhəmiyyətini vurğulamışdır: «Artıq 4-cü ildir ki, vergilərə dair problemlərin açıq dialoq şəraitində müzakirə edildiyi bu partnyorluq platformasının vergi sisteminin inkişafına mühüm töhfəsi vardır. Müasir iqtisadi münasibətlər şəraitində bizneslə tərəfdaşlıq və partnyorluq münasibətlərinin qurulması vergi orqanlarının fəaliyyətinin prioritet istiqamətlərindəndir. Vergilər Nazirliyinin təşkil etdiyi bu forumlar açıq, qarşılıqlı etimada söykənən dövlət-biznes münasibətlərinin qurulmasına imkan verir. Biz peşəkar mütəxəssislərin, ekspertlərin iştirakı ilə Azərbaycan və dünya iqtisadiyyatı, bütövlükdə dünya vergi sistemləri qarşısında duran bir çox qlobal problemləri, mühüm məsələləri müzakirə etmək imkanı qazanırıq.

Hesab edirəm ki, burada qaldırılan və müzakirə olunan məsələlər dövlətin və biznesin maraqlarının bir çox təmas nöqtələrində qarşılıqlı anlaşma əldə olunmasına yardım edir. Müzakirələrin məhz belə formatı bizneslə qurulan partnyoqluq münasibətlərinin səmərəliliyinə dəlalət edir və ölkəmizdə daha əlverişli biznes mühitinin yaradılması üçün iqtisadi sistemin bütün tərəflərinə faydalı və optimal həllər tapmağa imkan yaradır.

Çox sürətlə dəyişən müasir dövrümüzdə həm biznes qurumları, sahibkarlar, həm də vergi orqanları qarşısında yeni çağırışlar dayanır. «Azərbaycan 2020: gələcəyə baxış» Konsepsiyası olkə iqtisadiyyatı qarşısında dünyanın inkişaf etmiş dovlətləri sırasına daxil olmaq kimi mühüm bir vəzifə müəyyənləşdirmişdir. Bu isə yüksək rəqabət qabiliyyətli, yeni texnologiyalara əsaslanan innovasiya yönümlü bilik iqtisadiyyatının yaradılmasını zəruri edir.

Hazırda biz bu Konsepsiya ilə bağlı qəbul etdiyimiz 2013-2020-ci illəri əhatə edən Strateji Planın uğurla reallaşdırılması üçün fəal iş aparırıq. Yaxın gələcəkdə informasiya texnologiyaları təməlli və bilik menecmentinə əsaslanan müasir vergi inzibatçılığının inkişaf etdirilməsi, onun şəffaflığının və yüksək səmərəliliyinin təmin edilməsi yenə də prioritet olacaqdır. Müasir vergi administrasiyalarında yeni analitik və informasiya texnologiyalarından sərbəst istifadə etməyi bacaran və yüksək biliklərə malik kadrlar vergi orqanlarının dayanıqlı inkişafını və dövlət qarşısında öz funksiyalarının layiqincə yerinə yetirilməsini təmin edir. Bu baxımdan, Vergilər Nazirliyi insan resurslarının idarə olunmasının təkmilləşdirilməsini davam etdirəcək. Bu məqsədlə artıq Avropa Birliyi, Fransa və İspaniya vergi administrasiyaları ilə birlikdə yeni tvinninq layihəsinin də reallaşdırılmasına başlanılmışdır. Fürsətdən istifadə edərək, mən bu layihəyə verdiyi dəstəyə görə, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir xanım Malena Marda bir daha təşəkkürlərimi çatdırmaq istədim».

Bildirilmişdir ki, Vergilər Nazirliyi təkcə vergi sisteminin informasiya-analitik potensialının gücləndirilməsi ilə deyil, vergi xidmətinin dolayısı ilə birbaşa fiskal maraqları olan sahələrdə də inkişaf proseslərinə dəstək verir: «Vergi xidməti ölkəmizdə nağdsız ödənişlərin təşviqi prosesində maraqlıdır. Bu məqsədlə son bir neçə ildə nağdsız ödənişlər üçün müvafiq infrastrukturun yaradılması, bu sahədə stimullaşdırıcı tədbirlərin keçirilməsi istiqamətində lazımi tədbirlər həyata keçirilmişdir. Hazırda ölkəmizdə 6 milyona yaxın ödəniş kartının olması, 82 mindən çox POS-terminalın quraşdırılması nağdsız ödənişlərin genişləndirilməsi üçün yaxşı zəmin yaradır və hesab edirik ki, yaxın vaxtlarda biz bu işlərin nəticələrini görəcəyik».

Çıxışının sonunda nazir diqqəti Azərbaycanın beynəlxalq mövqeyinə yönəldərək qeyd etmişdir ki, dünyanın əksər ölkələri gündən-günə kəskinləşməkdə olan iqtisadi və maliyyə böhranlarının fəsadlarını öz üzərində hiss edir, büdcə və sosial sahələrdə bir çox ciddi çətinliklərlə üzləşirlər: «Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü davamlı iqtisadi inkişaf strategiyası bu böhranların yaratdığı problemlərdən sığortalanmağa, vətəndaşlarımızı onun neqativ təsirlərindən qorumağa, ölkəmizin sosial-iqtisadi inkişafının sabitliyinin təmin olunmasına zəmanət verir. Bu strategiyanın gələcəkdə də davamlı olması üçün dövlət büdcəsinin gəlirləri artmalıdır və həm biznes strukturları, fərdi sahibkarlar, həm də təbiidir ki, vergi orqanları bu sahədə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər.

*Yaxın gələcəkdə informasiya texnologiyaları təməlli və bilik menecmentinə əsaslanan müasir vergi inzibatçılığının inkişaf etdirilməsi, onun şəffaflığının və yüksək səmərəliliyinin təmin edilməsi yenə də prioritet olacaqdır*

Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanda bərqərar olmuş siyasi-iqtisadi sabitlik, dövlət və biznes strukturları arasında mövcud qarşılıqlı faydalı əməkdaşlıqdan səmərəli istifadə edərək, hər birimiz ölkəmizin tərəqqisi və davamlı inkişafı üçün əlimizdən gələni əsirgəməyəcəyik».

Sonra ölkə Prezidenti İlham Əliyevin beş nəfər vergi xidməti əməkdaşına ali xüsusi rütbələr verilməsi və bir qrup vergi əməkdaşının yüksək dövlət mükafatları ilə təltif edilməsi haqqında sərəncamları oxunmuşdur.

Vergilər naziri Fazil Məmmədov nazirliyin kollektivi adından göstərilən bu böyük diqqətə görə cənab İlham Əliyevə dərin minnətdarlığını bildirmiş, vergi əməkdaşlarının bu etimadı fədakar əməkləri ilə doğruldacaqlarını vurğulamışdır.

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Antonius Bruk, Dünya Bankının Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Larisa Leşşenko, Türkiyə Maliyyə Nazirliyinin Gəlirlər İdarəsinin başqanı Adnan Ertürk tədbirdə çıxış edərək Azərbaycanın vergi sistemində həyata keçirilən islahatları müsbət qiymətləndirmişlər.

Milli Məclisinin İqtisadi siyasət komitəsinin sədri, akademik Ziyad Səmədzadə qeyd etmişdir ki, ölkə iqtisadiyyatının strukturunun təkmilləşməsində, dövlət büdcəsinin formalaşmasında, strateji valyuta ehtiyatlarının artmasında Vergilər Nazirliyinin mühüm rolu vardır. Müstəqil Azərbaycanın vergi sistemi çox çətin şəraitdə formalaşmışdır: «Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasının reallaşması nəticəsində müstəqil iqtisadi proqramların, vergi islahatlarının həyata keçirilməsinə nail olunmuşdur. Bu gün Azərbaycan regionda dinamik inkişaf edən əsas ölkələrdən birinə çevrilmişdir. Uğurlu iqtisadi siyasətin mühüm tərkib hissəsi olan vergi sisteminin reallaşması nəticəsində Azərbaycanın güclü vergi inzibatçılığı yaradılmışdır».

Tədbirdə Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) prezidenti Hans Blokpoelin Vergilər Nazirliyinin rəhbərliyinə və ölkəmizin vergi xidməti əməkdaşlarına video-təbriki nümayiş etdirilmişdir. Təbrikdə vurğulanmışdır ki, Azərbaycan Vergilər Nazirliyi 15 il müddətində ölkənin vergi sisteminin formalaşması və inkişafı istiqamətində böyük uğurlar əldə etmişdir.

Dünya Bankının təmsilçisi Larisa Leşşenko qlobal böhranın səngimədiyi bir şəraitdə Azərbaycan iqtisadiyyatının yüksək dinamizmlə inkişaf etdiyini, vergi dərəcələrinin son illər azaldılması tendensiyası fonunda vergi xidməti orqanlarının xətti ilə büdcəyə daxilolmaların ilbəil artmasını yüksək dəyərləndirmişdir.

BMT-nin ölkəmizdəki nümayəndəsi Antonius Bruk Azərbaycanın vergi sisteminin son illər keçdiyi yüksək inkişaf yoluna nəzərə salmışdır.

Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Malena Mard qeyd etmişdir ki, müasir dövrdə hər bir ölkənin dinamik iqtisadi inkişafı vergi sisteminin mükəmməl şəkildə formalaşdırılmasından, çevik və səmərəli fəaliyyətindən asılıdır. Azərbaycanın sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsində vergi orqanlarının üzərinə də çox mühüm vəzifələr düşür.

Türkiyə Maliyyə Nazirliyinin Gəlirlər İdarəsinin başqanı Adnan Ertürk Azərbaycanda keçirilən vergi forumlarının əhəmiyyətini qeyd etmiş, bu tədbirlərin vergi administrasiyaları arasında səmərəli əməkdaşlıq üçün mühüm rol oynadığını diqqətə çatdırmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin («ASAN xidmət» ) sədri İnam Kərimov bildirmişdir ki, «ASAN xidmət»in əsas məqsədi dövlət orqanlarının xidmətlərinin göstərilməsində vətəndaş məmnunluğunun, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının istisna edilməsi, müasir texnologiyaların tətbiqi, dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin formalaşdırılmasıdır.

İqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova bildirmişdir ki, son illərdə vergi qanunvericiliyi və inzibatçılığı əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş, vergi ödəyicilərinin hüquqları genişləndirilmiş, onlara göstərilən xidmətlərin keyfiyyəti yüksəldilmiş, vergi bəyannamələrinin elektron formada təqdim olunmasına başlanılmış, vergi sisteminin modernləşdirilməsi təmin olunmuş və kadr potensialı möhkəmləndirilmişdir: «Hazırkı mürəkkəb qlobal iqtisadi vəziyyətdə vergi siyasətinin çevikliliyi xüsusi önəm kəsb edir. Ümumiyyətlə, iqtisadiyyatın şaxələndirilməsini, əlverişli investisiya mühitinin yaradılmasını, sahibkarlığın sürətli inkişafını şərtləndirən və texnoloji yeniliklərə daim açıq olan çevik vergi siyasətinin formalaşdırılması əsas vəzifələrdən hesab oluna bilər».

Litva Maliyyə Nazirliyi yanında Dövlət Vergi Müfəttişliyinin rəhbəri Dainoras Bradauskas, Rusiya Federasiyası Federal Vergi Xidmətinin rəis müavini Natalya Zavilova, Qazaxıstan Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin sədri Daulet Yerqojin Azərbaycanın əldə etdiyi uğurların bünövrəsində vergi sisteminin böyük rol oynadığını, qısa müddət ərzində ölkədə dayanıqlı, çevik vergi sisteminin yaradıldığını vurğulamışlar. Qeyd edilmişdir ki, Azərbaycanda iqtisadi artımın, büdcə-maliyyə vəsaitlərinin həcminin yüksəlməsində ölkədə tətbiq olunan mükəmməl vergi sistemi böyük rol oynamışdır.

Forumun «Vergi sisteminin modernləşdirilməsi və səmərəliliyi» mövzusunda keçirilən sessiyasında aktiv vergi siyasətinin həyata keçirilməsi, vergi siyasətinin fiskal sektora təsiri və onun strateji prioritetləri, innovativ iqtisadi inkişafa keçid prosesində vergi güzəştlərinin tətbiqinin əhəmiyyəti dəyərləndirilmiş, ölkədə bələdiyyə institutları, yerli vergilərin yığılmasında yaranan çətinliklər, eləcə də qeydiyyatdankənar əmək münasibətlərinin yaratdığı problemlər müzakirə edilmişdir. Sessiyanın gedişində əmək münasibətlərinin leqallaşdırılması məsələləri, yaranan risklər və onların aradan qaldırılması yolları, transfert qiymətləndirmə, eləcə də biznes sektoru və vergi orqanları arasında əməkdaşlıq və korporativ sosial məsuliyyət məsələlərinə dair təqdimatlar dinlənilmişdir.

«Vergilərin məcburi yığılmasından könüllü əməletməyə keçid» mövzusuna həsr olunmuş növbəti sessiyada isə əsas müzakirə obyekti vergi ödəyicilərinə göstərilən xidmətlər və onların inkişaf istiqamətləri, elektron xidmətlər, ödəyiciləri könüllü vergi əmələtməsinə təşviq edən üsullar və bu sahədə mövcud dünya təcrübəsi, həmçinin vergi maarifləndirməsində QHT-lərin və mətbuatın rolu müzakirə edilmişdir.

Ekspertlər vergi partnyorluğu sazişləri, onların tətbiqi prosesində ortaya çıxan məsələlər, bu sahədə mövcud beynəlxalq təcrübə, eləcə də hökumət ödənişləri portalı və onun e-hökumətin inkişafında rolu, elektron xidmətlərin inkişaf istiqamətləri, ASAN İmza, nağdsız ödənişlər və onun inkişaf istiqamətləri mövzularında çıxışlar və təqdimatlar etmişlər.

Sessiyalarda müzakirə olunan məsələlər ətrafında geniş diskussiyalar aparılmış, forum iştirakçıları vergi qanunvericiliyi və vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı müxtəlif təkliflər irəli sürmüşlər.

Sessiyalar işini başa çatdırdıqdan sonra plenar iclasda IV Vergi Forumunun yekunları ilə bağlı iştirakçılara ümumiləşdirilmiş məlumat təqdim olunmuşdur.

Bununla da «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda IV Vergi Forumu işini başa çatdırmışdır.

***Hazırladı:***
**Elbrus CƏFƏRLİ**

# Vergi daxilolmaları ilə bağlı yarana biləcək problemlər minimuma endiriləcək

*Vergilər Nazirliyinin yaradılmasının 15 illik yubileyinə həsr olunmuş «Azərbaycanın vergi sistemi: reallıqlar və perspektivlər» mövzusunda IV Vergi Forumu çərçivəsində vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov kütləvi informasiya vasitələrinin nümayəndələri üçün brifinq keçirmiş, jurnalistləri maraqlandıran sualları cavablandırmışdır.*




***«Yeni Azərbaycan» qəzeti:*** - Cənab nazir, 2015-ci ildə Vergilər Nazirliyinin qarşısında duran əsas hədəflər nədən ibarətdir və beynəlxalq maliyyə böhranı fonunda Azərbaycanda vergi daxilolmaları sahəsində proqnozlar özünü doğruldacaqmı?

- Dünyada, xüsusilə də tərəfdaş ölkələrdə baş verən proseslər, ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi, təbii ki, Azərbaycandan da yan keçməyəcək. Amma hesab edirəm ki, cənab Prezidentin apardığı iqtisadi siyasət bu təsirləri azaldacaq, eyni zamanda vergi daxilolmaları ilə bağlı yarana biləcək problemlər də bütün hallarda minimuma endiriləcək. Çünki ölkə başçısının bununla bağlı iqtisadi siyasət planı, həmçinin Vergilər Nazirliyi qarşısında qoyduğu mühüm vəzifələr var ki, həmin plan əsasında nazirlik fəaliyyətini davam etdirəcək.

***ANS TV:*** - Cənab nazir, daşınmaz əmlakın əlavə dəyər vergisinə cəlb olunması məsələsini şərh etməyinizi xahiş edirik.

- Daşınmaz əmlakın əlavə dəyər vergisinə cəlb olunması yeni məsələ deyil. Əvvəllər də daşınmaz əmlakın alqı-satqısından ƏDV-nin tutulması mövcud idi. Sadəcə, əvvəllər bunun uçotu yox idi. Bu gün isə bütün alqı-satqılar notarial qaydada rəsmiləşdirilir və cənab Prezidentin sərəncamına əsasən, həmin sənədlər də Vergilər Nazirliyinə təqdim edilir. Artıq Vergilər Nazirliyində bununla əlaqədar məlumat bazası vardır. Daşınmaz əmlakın vergiyə cəlb olunması prosesinə keçən ilin əvvəlindən başlanılmışdır.

Burada söhbət, daşınmaz əmlak ƏDV-yə cəlb olunmalıdırsa, ƏDV-dən və bir də əmlakın alqı-satqısı zamanı yaranan fərqdən gəlir vergisi ödənilməsindən gedir.

***Space TV:*** - Birinci Avropa Oyunları ilə əlaqədar POS-terminalların quraşdırılması prosesi necə gedir?

- Vergilər Nazirliyi müvafiq banklarla, eləcə də Mərkəzi Bankla birgə POS-terminalların sayının artırılması istiqamətində işlər aparır. 2013-cü ilin yekunlarına görə, ölkədə POS-terminalların sayı 38 min idisə, bu gün həmin göstərici 82 mindən çoxdur. Hədəfimiz I Avropa Oyunlarına qədər quraşdırılacaq POS-terminalların sayını 95 minə çatdırmaqdır.

***Space TV:*** - Elektron ticarətin vergiyə cəlb olunması sahəsində vəziyyət necədir?

- Bu, indi bütün dünya üçün ən vacib problemlərdən biridir. Dünyanın inkişaf etmiş vergi sistemlərindən heç biri hələ bu işi tam nəzarətə götürə bilməyib. Ona görə də hazırda bu sahədə vergi inzibatçılığının təkmilləşdirilməsi üzərində işlər aparılır.

**AYTƏN**

# «Elektron-Öyrənmə» insan resurslarının inkişafına töhfə verir



Vergilər nazirinin müşaviri, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri **Asəf Əsədovun** müsahibəsi

***Asəf müəllim, vergi sistemində insan resurslarının inkişafını nəzərdə tutan «Elektron-Öyrənmə» platformasının tətbiqi nəzərdə tutulub. «Elektron-Öyrənmə» (E-Öyrənmə) nədir və hansı istiqamətləri əhatə edir?***

- Müasir dövrdə insan resurslarının inkişafında ən vacib məsələlərdən biri işçilərin motivizasiyasıdır. Bununla bağlı dünyanın məşhur «Gallup» şirkəti 189 ölkədə 25 milyon işçi arasında 69 dildə müsabiqə aparmışdır. 12 istiqamət üzrə aparılan müsabiqə suallarının əksəriyyəti qeyri-maddi maddi motivizasiya üsulları ilə bağlı olub. Nəticələrə əsasən, işçilərin maraqlandığı və cavablandırdığı ən vacib istiqamətlərdən biri işçilərin öz iş yerlərində normal səmərəli fəaliyyətləri üçün yeni bilik və bacaraqlarının əldə etmə imkanlarının yaradılıb-yaradılmaması ilə bağlı olub. Bu imkanların olması onların bacarıqlarının üzə çıxmasında əsas amillərdən biri kimi mühüm yer tutur. Təcrübə göstərir ki, müasir idarəetmə sistemində başlıca prioritetlərdən biri işçilərin praktiki bilik və bacarıqlarının artırılması və düzgün ötürülməsidir.

Ona görə də dünyada insan resurslarının düzgün motivasiyası və praktiki biliklərin ötürülməsi modelinin yaradılması və tətbiqi ən vacib məsələlərdəndir.

Biz niyə hesab edirik ki, «Elektron Öyrənmə» Konsepsiyası bu gün çox vacibdır? Hazırda dünyada təhsil sahəsində də ən perspektivli və qabaqcıl üsullardan biri «E-Öyrənmə» modelidir. Məhz buna görə də bizim üçün vergi inzibatçılığında «Elektron-Öyrənmə» Konsepsiyası mühüm yer tutur. Məlum olduğu kimi, ötən ilin sentyabrından «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsinə start verilib. Burada 3 komponent nəzərdə tutulub. Birinci komponent insan resurslarının inkişafı ilə bağlı uzunmüddətli strategiya və tədbirlər planının hazırlanması, ikinci komponent insan resurslarının inkişafı sahəsində normativ-hüquqi bazanın yeniləşdirilməsi və nəhayət, sonuncu komponent tədris-təlim sisteminin modernləşdirilməsidir. Bütün bunların əsasında isə insan resurslarının modernizasiyası strategiyası əsas yer tutur. Son nəticə işçilərin motivasiya və peşəkarlıq səviyyəsinin artırılması nəticəsində vergi inzibatçılığının səmərəlilik göstəricilərinin artımıdır.

Strategiyaya uyğun olaraq, internet təməlli özünətəhsil xidmətləri həyata keçirməyə imkan verən onlayn tədris texnologiyalarının tətbiqi (e-tədrisin təşkili və daimi kontent dəstəyi) yolu ilə vergi administrasiyasının ehtiyaclarına uyğun tədris-treninq proqramları və kursların hazırlanması, praktiki məşğələlərin təşkili, fundamental təhsil almış, geniş və müasir praktiki təcrübəsi olan yaradıcı təlimçilərə, ekspertlərə və bilik menecerlərinə əsaslan və yüksək motivasiyası, kifayət qədər hazırlığı olan işçilərə yardım göstərmək üçün müasir inkişaf platformasının yaradılması həyata keçiriləcək.

Bu gün dünyanın tanınmış universitetlərinin böyük əksəriyyəti onlayn dərsliklərin tədrisinə, kursların təşkilinə üstünlük verir. Məsələn, Stenford Universitetinin belə bir kursu var ki, ora 400 min tələbə daxil olur, e-tədrisi mənimsəyir. Burada tədris pulsuzdur. Bu məqsədlə «E-Öyrənmə»nin tətbiqinə üstünlük veririk.

Həmin modelə menecer və sıravi işçilərin peşə biliklərinin dayanıqlı inkişafı, çoxmərhələli müasir tədris proqramlarında «E-Öyrənmə» modulunun tətbiqi, bilik, motivasiya və təşviq əsasında işçilərin yüksək fərdi nəticələrinin nazirliyin işində birləşdirilməsi, müasir insan resurslarının idarə edilməsi konsepsiyası və biliklərin ötürülməsi mexanizmləri, vergi inzibatçılığının səmərəlilik göstəricilərinin artımı, dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə, İnsan Resurslarının İnkişaf Strategiyası və Fəaliyyət Planı daxildir.

***- E-Öyrənmənin üstünlükləri nədən ibarətdir?***

- Məlum olduğu kimi, biz Tvinninq layihəsi üzrə Fransanın və İspaniyanın vergi administrasiyaları ilə birgə işləyirik. İlk olaraq biz onların «E-Öyrənmə» platformasının tətbiqi ilə tanış olmuşuq. Proses zamanı aydın oldu ki, «E-Öyrənmə» konsepsiyasında nəzərdə tutulan e-təlimlərin həyata keçirilməsi ənənəvi üsullarla aparılan təlimlərdən 6 dəfə ucuz başa gəlir və böyük həcmdə maliyyə vəsaitlərinin itkisinin qarşısını alır. Həm də vaxt baxımından mühüm əhəmiyyətə malikdir. Həmçinin, bu tədris istənilən vaxtda və istənilən yerdə istifadə oluna bilər. Dinləyici istənilən ünvandan və yerdən bu sistemə qoşulub məlumat və bilgi ala bilər. Xüsusi olaraq vergi orqanı əməkdaşları departament və idarələrdə işlərində fəaliyyətlərini davam etdirməklə bərabər, bu təlimlərə qatılır. Məlumdur ki, onların işləri çox olduğundan vaxt məhdudiyyətləri meydana çıxır və lazımi qədər tədris və təlimlərdə iştirak edə bilmirlər. Amma bu təlim metodu elektron üsullarla həm işin, həm də e-tədrisin aparılmasını mümkün edir, mövzuların asan və yüksək səviyyədə qavranılması təmin olunur.

Bizim təlim platformasında 2 cür kursların təşkili nəzərdə tutulub. Birinci icbari kurslardır. Bu, hazırlıq kurslarını əhatə etməlidir. İşə yeni qəbul olunmuş işçilər bu kurslarda iştirak etməli və vaxtaşırı olaraq ixtisasartırma kurslarına cəlb olunmalıdırlar. Bunlarla yanaşı, digər aparıcı ölkələrdə olduğu kimi, könüllü və davamlı təlim sistemini tətbiq etməyi qarşıya məqsəd qoymuşuq. Bütün bu işlər Tvinninq layihəsinə uyğun olaraq yaradılmaqdadır. Hazırda texniki məsələlər üzərində işlər aparılır və yaxın aylarda «E-Öyrənmə» modulunun tətbiqi mümkün olacaq. Təxminən mart-aprel aylarında ilkin kurslar təşkil olunacaq və sonra daha geniş sahələri əhatə edəcək.

Biz hesab edirik ki, daha çox könüllü təlim metoduna üstünlük vermək lazımdır. Çünki bu sistemdə iştirak edənlərin özünün motivasiyası var. Burada nazirliyin həm sıravi, həm də rəhbər işçilərinin iştirakını nəzərdə tutmuşuq. Ancaq biz bu modeldə yenilik etmək istəyirik. Təklif edirik ki, təlim kurslarında davamlılıq 2-3 saat və 15-20 dəqiqə olmaqla 7-8 mərhələdən ibarət olsun. Belə kurslardan misal kimi vacib olan özünəidarəetmə kursunu göstərmək olar.

***- Özünəidarəetmə «E-Öyrənmə» kursu hansı mərhələləri əhatə edir?***

- Bu kurs 7 mərhələdən ibarətdir. Bunlar stress, dözümlülük və ciddi iş yükü altında işləmə qabiliyyəti, düzgün ünsiyyət qurma, planlaşdırma və nəticələri əldə etmə, liderlik və komandada işləmə, özünətəhsil, məlumatların əldə olunması, sistemləşdirilməsi və istifadə edilməsi, problemləri həll etmək qabiliyyətləri kimi mərhələlərdən ibarətdir. Hər mərhələnin sonunda dinləyici özünüyoxlama suallarına cavab verməsə növbəti mərhələyə keçə bilmir. Onun bütün mərhələləri keçməsi üçün bütün kursları keçməsi vacibdir.

Biz «E-Öyrənmə» kurslarını bir neçə istiqamət üzrə aparmağı planlaşdırmışıq. Birinci menecment üzrə kursların təşkilidir. İkinci ixtisaslaşmış kurslardır, məsələn, e-audit və digər mövzular üzrə .

«E-Öyrənmə»nin müxtəlif komponentləri var və bura məlumatların əldə olunması və çatdırılması, təlim iştirakçılarının qeydiyyatı, e-lövhə, media kitabxana, e-imtahan, video-konfrans və vebinarlar üçün virtual otaq, forum və sosial şəbəkələr, sorğu, iştirakçıların sertifikatlaşdırılması aiddir. «E-Öyrənmə» platformasının texniki imnkanları vergi sistemində işləyənlərin eyni vaxtda daxil olub dinləməsinə imkan verir.




Eyni zamanda, «E-Öyrənmə» prosesi 3 pilləni əhatə edir. Birinci pillədə biz özünətəhsil kurslarını «e-öyrənmə» platformasında yerləşdirəcəyik. Burada iştirakçıların mövzu ilə ilkin tanışlığı həyata keçirilir. İştirakçılar üçün tələb olunan mövzulara giriş verilir, yüksək vəzifəli şəxslərin iştirakçılara təlimin əhəmiyyətindən bəhs edən qısa video çıxışları yazılır, mövzudakı əsas fikir və prinsipləri anlamaq üçün qısa videolar və əyani materiallarla nümunələr nümayiş etdirilir. Təlim iştirakçıları üçün özünüyoxlama sualları verilir. Sonrakı mərhələdə əsas məsələlərlə bağlı bilik məsləhətçiləri ilə distant əlaqə qurulur, iştirakçılarla e-mail, çat, forum və s. vasitələrlə əlaqə yaradılır. Üçüncü mərhələdə iş yerində təlimlər keçirilir, vergi praktikasından götürülmüş hallar və mürəkkəb texnologiyalar praktiki tətbiqi öyrənililir. Bu 3 pillələrin yekunu olaraq kombinə (e-test imtahanı, yazılı imtahan və müsahibə) imtahan keçirilir.

Nəhayət, iştirakçıların sertifikatla təltif edilməsi, insan resursları idarəsi tərəfindən şəxsi məlumatlar bazasına vergi əməkdaşının bitirdiyi təlimlər haqqında məlumatların daxil olunması, karyerada inkişaf imkanlarının əldə edilməsi, imtahan nəticələri və bilik məsləhətçiləri ( təlimçinin) rəylərinə əsasən həvəsləndirmə və digər motivasiya tədbirlərinin aparılması nəzərdə tutulur.

Gələcəkdə bunu inkişaf etdirib videokonfrans zamanı dinləyicilərin suallar verməsi də təmin olunacaq. Biz təlimlərdən uğurla keçmiş əməkdaşları həvəsləndirməyi də diqqətdə saxlayacağıq və onlara sertifikatlar veriləcək. Bu sənədlər işçinin gələcək karyerası, vəzifədə irəliləməsində mühüm rol oynayacaq.

Amma biz bu modeli tətbiq edərkən yeni bir yanaşma, innovativ metodu seçmişik. Təhlil etmişik ki, niyə bir sıra ölkələrdə «E-Öyrənmə» modeli zəif tətbiq olunur. Çünki həmin ölkələrin sistemində yerləşdirilmiş dərs vəsaitləri, materiallar qarşısında dinləyici tək qalır. Ona görə də bu materialların yenidən işlənib əyani formada və asan, başadüşülən formada çatdırılması lazımdır. Ona görə də biz bu işi bilik bələdçiləri vasitəsilə həyata keçirməyi düşünürük.Tvinninq layihəsinə uyğun olaraq bilik bələdçilərinin hazırlanması məqsədilə nazirliyin idarələrindən namizədlər seçiləcək və layihənin icra müddəti dövründə onlara yerli və xarici ekspertlərin iştirakı ilə müxtəlif treninqlər keçiriləcək. Onlar bilik bələdçiləri kimi yetişib dinləyiciləri hazırlayacaq.

Artıq ötən ildən başlayaraq Xüsusi Rejimli Vergi Xidməti Departamentində 9 nəfərdən ibarət qrupda e-audit həyata keçirmişik və müsbət nəticə əldə etmişik.




***- «E-Öyrənmə» Konsepsiyası vergi sistemində insan resurslarının inkişafına hansı töhfəni verəcək?***

- İspaniya, Fransa və digər ölkələrin vergi orqanlarının təcrübəsi onu göstərir ki, işçilərin irəliləyişləri birbaşa bilik və bacarıqla bağlıdır. Fransa və İspaniyada dövlət vergi orqanlarında işləmək istəyənlər bir il ərzində bir neçə imtahan verirlər. Sonra imtahanlarda yüksək qiymətlər almış namizədlər stajçı kimi 2 ilə yaxın ilkin hazırlıq kursları bitirdikdən sonra vergi orqanlarında işləməyə başlayırlar. İşçilərin qiymətləndirilməsi üçün müxtəlif üsullar tətbiq olunur.

Bizim vergi sistemimizdə də bu modulların tətbiq olunması mümkün ola bilər. Vergi sistemində son illər insan resurslarının inkişafı sahəsində xeyli işlər görülüb və bu istiqamətdə işlər davam edilir. Hesab edirəm ki, bizim vergi sistemində də işçilərin qiymətləndirilməsi üçün yeni tipdə imtahanların keçirilməsi reallaşa bilər. Həmçinin, kursların davamlılığı, keyfiyyətli aparılması və imtahanların keçirilməsi sisteminin də dəyişdirilməsi mümkünləşə bilər. Çünki imtahanların birbaşa test vasitəsilə keçirilməsi lazımi effekt vermir, ona görə də kombinə olunmuş imtahan texnologiyalarının tətbiqi vacibdir. Məqsəd nazirlikdə işçilərin öz bilik və bacarıqlarının və peşəkarlıq səviyyəsinin daim artırılmasından ibarətdir.

**Elbrus CƏFƏRLİ**

# Vergi ödəyicilərinin hüquqları və qanuni mənafeləri qorunur



*Samirə Musayeva,*
*Vergilər Nazirliyinin*
*Hüquq Baş İdarəsinin rəisi*

Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən Vergilər Nazirliyi ona həvalə edilmiş vəzifə və funksiyalarını icra edərkən hüquqi dövləti səciyyələndirən hüquq və azadlıqların üstünlüyü prinsipini rəhbər tutaraq, vergi ödəyicilərinin hüquqlarını və qanuni mənafelərini təmin edir, bu istiqamətdə qanunvericiliklə müəyyən edilmiş bütün zəruri tədbirləri görərək əməli addımlar atır.

Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edən Vergi Məcəlləsi müstəqil Azərbaycanın həyatında tarixi bir hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış mühüm addımlardan biri olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının insan hüquq və azadlıqlarına xüsusi önəm verməsinin nəticəsidir ki, 221 maddədən ibarət Vergi Məcəlləsinin 100-dən artıq maddəsi vergi ödəyicilərinin hüquqlarının qorunması və onların qanuni maraqlarının təmin olunması ilə bağlıdır. Yeni ictimai münasibətlərin yaranması, aparılmış çoxsaylı islahatlar, insan hüquq və azadlıqlarının müdafiəsinin prioritetliyi, vergi sisteminin modernləşdirilməsi, vergi-hüquq normalarının beynəlxalaq standartlara uyğunlaşdırılması prosesinin sürətləndirilməsi məqsədi ilə Vergi Məcəlləsinə indiyədək 45 qanunla bir sıra mütərəqqi dəyişikliklər edilmişdir. Dəyişikliklərin əksəriyyəti vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsinə, vergi yükünün azaldılmasına və vergi inzibatçılığının təkmilləşdirilməsinə yönəlmişdir. Qanunvericilik aktlarında vergi ödəyicilərinin hüquqlarının qorunması ilə bağlı maddələrin əks olunması Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər zamanı da diqqətdən yayınmamışdır. Sonuncu belə dəyişikliklərdən biri də bu yaxınlarda əmlak və yol vergisi ilə bağlıdır. Bu dəyişiklikdən sonra vergi ödəyicilərinin hüquqi vəziyyəti yaxşılaşdırılmış və vergilərin hesablanması mexanizmi daha da asanlaşdırılmışdır. Əmlak vergisinin binaların inventar dəyərinə əsasən hesablanma qaydası ləğv edilmiş, fiziki şəxlərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə müəyyən edilmiş müvafiq dərəcələr tətbiq olunmaqla hesablanmağa başlanmışdır. Digər mühüm bir dəyişiklik yol vergisi ilə bağlıdır. 2015-ci ilədək illik yol vergisini dövlət büdcəsinə fiziki şəxslər avtonəqliyyat vasitələri texniki baxışdan keçirilən zaman onların mühərrikinin həcminə görə, hüquqi şəxslər isə balanslarında olan avtonəqliyyat vasitələrinə görə vergi orqanlarına müvafiq bəyannamə təqdim etməklə ödəyirdilər. Bu zaman hüquqi və fiziki şəxslər tərəfindən istismara yararsız avtonəqliyyat vasitələrinə görə də, onların avtomobil yollarından istifadə edib-etməmələrindən asılı olmayaraq, yol vergisi ödənilirdi. Son dəyişikliklə ölkə ərazisində istehsal edilərək daxili istehlaka yönəldilən və idxal olunan avtomobil benzini, dizel yanacağı və maye qazın hər litrinin topdansatış qiymətinə 2 qəpik əlavə edilməklə yol vergisi tətbiq edilmişdir. Artıq yol vergisi bəyannaməsini bütün avtomobil sahibləri deyil, yalnız Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı və ya idxalı ilə məşğul olan şəxslər təqdim edəcəklər.

Ölkənin iqtisadiyyatı, sosial həyatı və ictimai münasibətlərin digər sahələrinin tənzimlənməsində hüququn rolunun artması ilə əlaqədar olaraq, Vergilər Nazirliyində hüquqi təminat və məhkəmə işlərinin düzgün qurulması böyük əhəmiyyət kəsb edir. Normativ bazanın formalaşdırılmasını, məhkəmələrdə düzgün hüquqi müdafiənin qurulmasını təmin etmək, hüquqi təminat və məhkəmə işlərinin nəzəri və praktiki problemlərini təhlil etmək, yerli vergi orqanlarında hüquqi işlərin təşkilinə metodiki rəhbərliyi gücləndirmək, vergi orqanlarının fəaliyyətində qanunvericiliyin düzgün tətbiqini təmin etmək, vergi işçilərinin qanunvericilikdə baş verən yenilikləri daim izləyə bilmələrini və qanunvericiliyin təkmilləşdirilməsində onların fəal iştirakını təmin etmək məqsədilə Azərbaycan Respublikası vergilər nazirinin 1 oktyabr 2001-ci il tarixli əmri ilə Vergilər Nazirliyinin aparatında müstəqil hüquq strukturu yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2000-ci il fərmanı ilə Vergilər Nazirliyinə Cinayət Məcəlləsinin bir sıra maddələri üzrə təhqiqat və istintaq aparılması səlahiyyətləri verilməsi ilə əlaqədar nazirlikdə Hüquq-mühafizə orqanları ilə əlaqələndirmə Baş İdarəsi, eləcə də Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti yaradılmışdır. Departamentin fəaliyyəti nəticəsində əksər hallarda ibtidai araşdırma zamanı vergi ödəyiciləri tərəfindən büdcədən yayındırılmış vergilərin dövlət büdcəsinə ödətdirilməsi təmin olunur və cinayət işinin başlanaraq məhkəməyə göndərilməsinə ehtiyac qalmır. Sonrakı dövrlərdə həmin strukturlar əhəmiyyətli dərəcədə genişləndirilmişdir və hazırda Vergilər Nazirliyində Hüquq Baş İdarəsi, yerli vergi orqanlarında isə müvafiq hüquq strukturları şəklində fəaliyyət göstərirlər.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq Baş İdarəsi hüquqi təminat, məhkəmə işlərinin təşkili və daxil olmuş materialların hüquqi ekspertizası sahəsində tənzimləmə fəaliyyətini həyata keçirir. Baş idarə Əsasnaməsi ilə ona verilmiş səlahiyyətlər çərçivəsində Vergilər Nazirliyini iddiaçı, cavabdeh, zərərçəkmiş və üçüncü şəxs qismində bütün məhkəmə instansiyalarında təmsil edir, vergi orqanlarının iştirak etdiyi məhkəmə işlərinə ümumi nəzarəti həyata keçirir, səyyar və kameral vergi yoxlamaları, operativ vergi nəzarəti tədbirlərinin nəticələri üzrə vergi ödəyicilərinin əməllərində cinayət əlamətlərinin aşkar edilməsinə dair göndərilmiş materialların hüquqi ekspertizasını keçirir, vergi ödəyicilərindən və vətəndaşlardan daxil olmuş ərizə və şikayətlərə baxılmasının nəticəsi üzrə hazırlanmış qərar və cavab məktublarının layihələrinə, habelə baş idarəyə daxil olmuş hüquqi akt layihələrinə münasibət bildirir, aidiyyəti hüquqi akt layihələrini hazırlayır və vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlı nazirliyin rəhbərliyinə təkliflər verir.

Yerli hüquq strukturları da vergi orqanlarında hüquqi işlərin təşkilini 3 istiqamətdə: məhkəmə işlərinin təşkili, cinayət xarakterli materialların hüquqi ekspertizası və hüquqi təminat sahəsi üzrə həyata keçirirlər.

Vergi ödəyicilərinin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi, onların təkrar şikayətlərinə (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş qaydada baxılması, habelə məhkəməyə qədər sadələşdirilmiş prosedurlara əməl edilməklə mübahisələrin obyektiv şəkildə həll edilməsi məqsədilə vergilər nazirinin 7 mart 2008-ci il tarixli əmri ilə Vergi Apelyasiya Şurası yaradılmışdır. Vergi ödəyicilərinin hüquqlarının müdafiəsinin məhkəməyə qədərki icraatı hesab edilən Vergi Apelyasiya Şurasının fəaliyyəti nəticəsində ödəyicilərin hüquqları daha mükəmməl qorunur və vergi orqanları tərəfindən qanunvericiliyin tələblərinə uyğun olmayaraq qəbul edilən inzibati aktların məhkəmə qaydasında mübahisələndirilməsinin qarşısı alınır. Fiziki və hüquqi şəxslərdən daxil olmuş korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə nazirliyin aparatında daxili təhlükəsizlik sahəsində təşkilati və nəzarət tədbirlərini həyata keçirən struktur tərəfindən qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilir.

Hüquq strukturlarının peşə hazırlığını yüksəltmək məqsədilə mütəmadi olaraq təlim və treninqlər təşkil edilir, müvafiq məhkəmə qərarları öyrənilərək təhlil işləri aparılır, vergi orqanları tərəfindən yol verilmiş nöqsanlar ümumiləşdirilir, gələcəkdə həmin hallara yol verilməməsi məqsədi ilə müvafiq tədbirlər görülür və bütün bunlar aparılan işlərin keyfiyyətinə və büdcəyə vergi daxilolmalarının artmasına öz müsbət təsirini göstərməkdədir.

*«Respublika» qəzeti,*
*07.02.2015*

## vergi təqvimi

| FEVRAL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

| | |
|---|---|
| 2 fevral | – «(10.1)» |
| 16 fevral | – «(5)» |
| 20 fevral | – «(1-1)», «3», «4», «8», «10.1», «10.2», «10.3» |

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

# Elektron ticarətdə ödəniş vasitələri

*Qəzetimizin ötən buraxılışlarında beynəlxalq miqyasda aparılan elektron ticarətdə tətbiq edilən ödəniş vasitələrinin bir neçəsi barədə məlumat vermişdik. Mövzunu davam etdiririk...*

***Barmaq izi ilə ödənişlər (Pay by finger)***

«Pay by finger» - ödənişləri barmaq izi ilə həyata keçirməyə imkan verən proqramdır. Bu proqramın bir sıra üstünlükləri var: hər hansı aylıq ödəniş edilmir, ödəniş prosesi sadə və sürətlidir, kartın itməsi, evdə qalması, oğurlanması kimi problemlər yoxdur. Kənar şəxslərin hesabla əməliyyat aparmaq ehtimalı aradan qaldırılır, əməliyyat zamanı şifrə və parola ehtiyac olmur.




Barmaqla ödənişlərin işləmə mexanizmi belədir: POS-terminallarla alış-veriş zamanı alıcı barmağını biometrik skan aparatına yaxınlaşdırır. Sistem istifadəçini müəyyənləşdirir və seçilmiş qeydiyyat metodundan asılı olaraq ödəniş prosesi başlayır. Ödəniş prosesində ekranda göstərilmiş xidmət və satılan mal haqqında məlumatlar və.s. öz əksini tapır. Əməliyyat başa çatdıqdan sonra alıcının mobil nömrəsinə bu barədə məlumat ötürülür.

Son dövrlərdə barmaq izi ilə ödənişi nəzərdə tutan proqram təminatları smartfonlara da inteqrasiya edilmişdir. Bu sahədə ilk yenilikçi «Samsung» şirkəti hesab edilir. Şirkətin istehsal etdiyi «Galaxy S5» smartfonunda quraşdırılan barmaq izi ilə ödənişləri həyata keçirməyə imkan verən proqram təminatları vasitəsi ilə həm onlayn mağazalarda, həm də ənənəvi mağazalarda alış-veriş etmək mümkündür.

Bunlardan başqa, barmaq izi vasitəsilə bankomatlarda da müxtəlif əməliyyatlar aparmaq mümkündür:

***Səslə ödəniş («Voice Pay»)*** - Yeni biometrik ödəniş sxemləri istifadəçilərə onlayn və telefon vasitəsi ilə öz səslərindən («voice signature») istifadə etməklə alış-veriş etmək imkanı verir. «Voice Pay» adlanan yeni ödəniş xidməti istifadəçinin biometrik səs analizinə əsaslanır. «Voice Commerce Ltd» şirkətinin törəmə müəssisəsi olan «VoicePay» şirkəti bu sahədə innovativ şirkət hesab edilir.

Bu sistem vasitəsi ilə həm onlayn, həm də telefon vasitəsilə ödəniş etmək mümkündür. «VoicePay» şirkəti 2012-ci ildə ən təhlükəsiz ödəniş vasitəsi kimi «The card and payments awards» mükafatına layiq görülmüşdür.

Qeyd edilməlidir ki, səslə ödəniş sistemlərini həyata keçirən şirkətlər, əsasən, Böyük Britaniyada fəaliyyət göstərir. «VoicePay» vasitəsi ilə mağazalarda alış-veriş etməklə yanaşı, müxtəlif iri həcmli maliyyə əməliyyatlarını həyata keçirmək mümkündür.

***«Bitcoin»*** - bu, birbaşa rəqəmsal valyutadır, çox vaxt kriptovalyuta və ya virtual valyuta kimi tanınır. Onun idarə olunması müstəqil həyata keçirilir. ABŞ dollarından fərqli olaraq, «bitcoin» hər hansı hökumət və ya hüquqi şəxs tərəfindən dəstəklənmir, həmçinin mərkəzi bank tərəfindən buraxılmır. «Bitcoin» sistemində əməliyyatlarda ənənəvi maliyyə institutları iştirak etmirlər. Əvvəlki rəqəmsal valyutalarda mərkəzi idarə edən şəxs olurdusa, «Bitcoin» şəbəkəsi tamamilə sərbəstdir, əməliyyatların bütün hissələri sistemin istifadəçiləri tərəfindən aparılır. «Bitcoin» əməliyyatların aparılmasında və valyuta buraxılışının idarə edilməsində kriptoqrafiyanın prinsiplərinə əsaslandığına görə, ona bəzən gizli valyuta kimi də istinad edilir. Hər bir «bitcoin» və istifadəçilər şifrələnir, bütün əməliyyat müstəqil şəkildə ümumi kitabda qeydə alınır.

«Bitcoin» şəbəkəsinə qoşulmaq üçün istifadəçilər ilk növbədə pulsuz və açıq mənbə olan proqramı yükləməlidirlər. Şəbəkəyə qoşulduqdan sonra «bitcoin» əldə etməyin üç yolu var. Birincisi, istifadəçi ənənəvi pulu onlayn mübadilədə haqqı ödənilməklə «bitcoin»ə çevirə bilər. Mübadilə haqqı əməliyyatın həcmindən asılı olaraq dəyişir. Kiçik əməliyyatlara 0,5%, iri əməliyyatlara 0,2% mübadilə haqqı tətbiq edilir. «Bitcoin»in qiyməti ona olan tələbat və buraxılışa əsasən müəyyən edilir. 2014-cü ilin iyul ayında 1 «Bitcoin»in qiyməti təxminən 600 dollar idi. Lakin qiymət tez-tez dəyişə bilir. Məsələn, 2013-cü ilin dekabrında 1 «bitcoin» 1100 dollardan yuxarı idisə, 2014-cü ilin aprelində 400 dollardan aşağı düşmüşdü.

Hazırda dövriyyədə 13 milyon «bitcoin» var. Alınmış və ya yaradılmış «bitcoin» istifadəçinin kompüterinin rəqəmsal «pul kisəsi»ndə və ya «onlayn pul kisəsi» xidmətində toplanır.

***PayPal*** - Elektron ticarət zamanı istifadə olunan digər hesablaşma metodu «PayPal» ödəniş provayderidir. Geniş vüsət almış bu metod elektron ticarət zamanı istifadə olunmaqla yanaşı, həm hesablaşma operatoru funksiyasını daşıyır, həm də tərəflər arasında vəsait köçürülməsi üçün istifadə olunmaqdadır. «PayPal»ın əsas funksiyası alıcı ilə satıcı arasında təminatçı funksiyasını daşımaqdır. Yəni malsatan məhsulu müəyyən olunmuş qaydada alıcıya çatdırmadığı təqdirdə, 45 gün ərzində ödənilmiş məbləğ alıcıya qaytarılır. Satıcı isə göndərdiyi mal müqabilində vəsaiti alacağına zəmanət alır. 2014-cü il üzrə bu sistem 203 ölkədə 137 milyon qeydiyyatçı və 26 milli valyuta ilə işləyən mexanizm kimi fəaliyyət göstərmişdir. «PayPal»da qeydiyyat və vəsaitin göndərilməsi ödənişsizdir. «PayPal», əsasən, vəsaitin konvertasiyasından mənfəət əldə edir. Komisyon haqqı vəsaitin benefisiarından tutulur.

***Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin icmalı əsasında hazırladı:***
**A.NƏBİYEVA**

beynəlxalq panoram

# Yaponiyada korporativ vergi dərəcəsi aşağı salınıb



Parlamentin aşağı palatasının Liberal-Demokratik Partiya və Komeyto koalisiyasından ibarət hakim fraksiyası 2015-ci maliyyə ilində vergiqoyma sistemində islahatlar aparılması layihəsini bəyənmişdir. Sənəd aprel ayından şirkətlər üçün verginin 2,51 bənd, yəni 32,1%-dək azaldılmasını nəzərdə tutur.

Baş nazir Sindzo Abe yaxın bir neçə il ərzində biznes üçün vergini 30%-dən aşağı həddə salmaq niyyətindədir. Hazırda Yaponiyada korporativ vergi 34,6% təşkil edir. Bu, inkişaf etmiş ölkələr arasında ən yüksək göstəricilərdəndir.

Bundan əlavə, korporativ verginin məbləği biznesin miqyasından asılıdır və şirkət zərər çəksə belə, dəyişmir. Vergi islahatı ölkədə işgüzar fəallığın artırılmasına və iqtisadiyyatın deflyasiyasının aradan qaldırılmasına yönəldilib.

# Roma turizm vergisini artıracaq

*Roma hakimiyyəti turizm vergisini bir sutka üçün 10 avroyadək artırmağı planlaşdırır.*

Yeni turizm vergisinin artırılması haqda xəbər Roma hakimiyyəti paytaxtda qalmaq üçün mehmanxananın tipindən asılı olaraq bir günlük vergini 3 avrodan 7 avroyadək artırılmasından cəmi 4 ay sonra gəlib. Çadırda yaşamağı qərara alanlar üçün sentyabrın 1-dən 2 avro məbləğində vergi tətbiq edilir.

Roma hakimiyyətinin turizm vergisinin növbəti artırılması ilə bağlı planları otel sahiblərinin narazılığına səbəb olub. Onlar bildiriblər ki, bu hərəkətlər hökumətin turizm biznesinin reallığından xəbərdar olmadığını aydın şəkildə göstərir.

Yığılan vergidən mehmanxana sahiblərinə heç nə çatmadığını nəzərə alaraq, onların gecələmək istəyənlərdən 3,5 avro alması həddən artıq böyük məbləğdir. Meriya nümayəndələri isə turizm vergisinin artırılması barədə mətbuata hələ şərh vermir.

# Çin növbəti dəfə neft məhsullarının istehlakı üzrə vergini artırır

Benzin, xam neft və sürtgü materialların istehlakının hər 1 litrinə vergi 1,4 yuandan 1,52 yuanadək yüksəlib. Dizel yanacağı, aviasiya kerosini istehlakı üzrə vergi isə hər litrə görə 1,1 yuandan 1,2 yuanadək artıb.

Bundan başqa, Çin Xalq Respublikasının islahat və inkişaf işləri üzrə Dövlət komitəsindən bildirilib ki, benzinin hər tonunun qiyməti 180 yuan, dizel yanacağının qiyməti isə hər tona 230 yuan azalıb.

Beləliklə, «90» markalı benzinin və «0» markalı dizel yanacağının pərakəndə satış qiyməti müvafiq olaraq hər litrinə 0,13 və 0,2 yuan azalıb.

Çində ekologiyaya mənfi təsir göstərən bir sıra enerji daşıyıcılarının və malların istehlakına görə vergi ilk dəfə 1994-cü ildə ətraf mühitin qorunması və inkişafın az enerji tutumlu modellərinin təbliği məqsədilə tətbiq edilməyə başlanmışdır.

# Belarus xarici valyutanın alınması üzrə vergini ləğv edəcək



Yanvarın 8-dən xarici valyutanın alınması üzrə birja əməliyyatlarına vergi dərəcəsi sıfıra endirilib.

Beləliklə, xarici valyutanın alınması üzrə Belarus valyuta-fond birjasının hərraclarında birja əməliyyatlarına vergi dərəcəsi 0% həcmində müəyyən edilib.

Xəbər verildiyi kimi, 2014-ci il dekabrın 19-da Milli Bank hüquqi və fiziki şəxslər tərəfindən alınan valyuta üzrə ölkədə müvəqqəti 30% yığımın tətbiqini bəyan edib. Bu qərar daxili valyuta bazarında avro və dollarla artan tələbat nəzərə alınmaqla qəbul edilib. Müəssisələr və banklar valyuta alarkən vergini birjada, vətəndaşlar isə komissiya şəklində banklarda ödəməyə borcludurlar. Ödənilmiş vəsaitlər büdcəyə yönəldilir.

29 dekabr 2014-cü ildən Belarusda xarici valyutanın alınması üzrə birja əməliyyatlarına vergi dərəcəsi 30% -dən 20% -dək, 5 yanvar 2015-ci ildən 20%-dən 10%-dək azaldılıb.

Xarici ölkələrin təcrübəsi

# Niderland Krallığı: əlavə dəyər vergisi

Ölkədə ƏDV malların və xidmətlərin istehlakından tutulan milli vergidir. Bütün sahibkarlıq fəaliyyəti subyektləri (azad peşə fəaliyyəti ilə məşğul olanlar da daxil olmaqla) və ölkəyə mal idxal edən şəxslər ƏDV ödəyicisi hesab olunurlar. Əgər xarici müəssisə Niderlandda mal və xidmətlər təqdim edirsə, ƏDV məqsədləri üçün vergi ödəyicisi hesab olunur. ƏDV ödəyicisi olmaq üçün minimum illik dövriyyə mövcud deyildir.

Vergiyə cəlb olunan əməliyyatlar:

- sahibkar tərəfindən biznes məqsədləri üçün mal və xidmətlərin təqdim olunması;
- sahibkar və ya sahibkar olmayan hüquqi şəxs olan təşkilat tərəfindən Niderlands biznes məqsədləri üçün Avropa İttifaqı (Aİ) ölkələrindən malların alınması;
- istənilən şəxs tərəfindən Aİ ölkələrindən yeni nəqliyyat vasitələrinin alınması;
- Aİ-dən kənar ölkələrdən Niderlanda malların idxal edilməsi;
- Qeyri-rezident müəssisə tərəfindən rezident müəssisəyə elektron xidmətlərin (e-kommersiya) təqdim edilməsi;
- Aİ-dən kənar ölkədən olan fərdi şəxs və ya sahibkar olmayan şəxsə elektron xidmətlərin (e-kommersiya) təqdim edilməsi;
- Digər Aİ-yə üzv ölkədə təsis olunmuş sahibkarlıq subyekti tərəfindən Niderlandda təsis edilmiş sahibkarlıq subyektinə və ya qeyri-sahibkarlıq subyektinə təqdim olunan xidmətlər.

Vergi tutulan məbləğə mal və xidmətlərə görə alınmış dəyər (ƏDV çıxılmaqla) və ya idxal malları üçün malın gömrük dəyərinə gömrük rüsumları da daxil olmaqla dəyər aiddir. Yekun vergi öhdəliyi hesablanarkən mal və xidmətlərin alınması zamanı ödənilmiş ƏDV-nin əvəzləşdirilməsinə yol verilir.

Yeni istifadəyə verilmiş daşınmaz əmlak ilk istifadədən sonra 2 il müddətində ƏDV-yə cəlb edilmir. Lakin bu cür əmlakların ƏDV-yə cəlb olunması metodu da seçilə bilər. ƏDV-dən digər azadolmalara sosial-mədəni xarakter daşıyan mal və xidmətlərin təqdim edilməsi, maliyyə, sığorta xidmətlərinin, bəzi şərtlər daxilində səhiyyə xidmətlərinin göstərilməsi daxildir. Dövlət təhsili müəyyən şərtlər daxilində ƏDV-dən azaddır. Sahibkarlıq fəaliyyətinin tam və ya bir hissəsinin digər şəxsə transferi həmin şəxsin sahibkarlıq fəaliyyətini davam etdirdiyi halda, ƏDV-dən azaddır.

***Dərəcələr:***

ƏDV-nin standart dərəcəsi 21%-dir (2012-ci il oktyabrın 1-dək 19% olub). 6%-lik azaldılmış dərəcə ərzaq məhsullarının (diri heyvan, quş məhsulları, qida məhsulları) istehlakı, su təchizatı, dərman preparatları və tibbi avadanlıqlar, sərnişin və onların şəxsi baqajlarının daşınması, kitab, qəzet, dövri nəşrlərin çapı, sərgi, muzey, sirk, konsert biletlərinin satışı, yazıçı və bəstəkarlara ödənilən royaltilər, dəfn və krematoriya xidmətləri, idman avadanlıqlarının istifadəsinə tətbiq edilir.

2013-cü il martın 1-dən 2014-cü il martın 1-dək vergi ödəyicisinin özünün yaşadığı fərdi evin yenidən qurulması, yenilənməsi və təmiri də (arxitektor və bağban xərcləri də daxil olmaqla) 6% dərəcə ilə ƏDV-yə cəlb olunub. Qeyd olunan xərclərin yalnız əmək ödənişi şəklində vergi ödəyicisinin 2 ildən artıq yaşadığı evin təmirinə çəkildikdə, 6%-lə ƏDV-yə cəlb olunmasına yol verilir.

İxrac və onunla bağlı olan bir sıra xidmətlər ƏDV-yə «0» (sıfır) dərəcə ilə cəlb olunur. Aİ-dən kənarda alıcıya təqdim edilən elektron xidmətlər də ƏDV-yə sıfır dərəcə ilə cəlb olunur.




***Qeyri-rezidentlər:***

Niderlandda vergiyə cəlb olunan əməliyyatlar həyata keçirən qeyri-rezidentlər rezident şəxslər kimi ƏDV ödəyicisi hesab olunurlar. Bu cür fəaliyyətlə məşğul olan qeyri-rezidentlər ƏDV məqsədləri üçün qeydiyyatdan keçməlidirlər. Onlara verilən ƏDV identifikasiya nömrəsi vergi tutulan əməliyyatlarda istifadə olunur. Onlar vergini dövri ƏDV bəyannaməsi əsasında ödəyirlər.

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Dondurma əlavə edilmiş qəhvə əsaslı soyuq içki; 2.Söykənəcəyi olmayan sadə stul, kətil; 3.Qədim Roma şairi; 4.Avtomobil markası; 5.Əfqanıstanın paytaxtı; 6.Ağstafa rayonunda Azərbaycanın görkəmli xalq şairinin adını daşıyan qəsəbə; 9.İslam ölkələrində dövlətə məxsus ərazilərin və ya gəlirlərin qanuni şəkildə konkret şəxslərə verilməsi; 13.Yuxu ruhu; 15.Afina dövlət xadimi, İran-yunan müharibələri dövründə (e.ə. 500-449-cu illər) yunan sərkərdəsi; 16.Respublikamızda rayon; 17.Süni qeyri-orqanik bərkidici tikinti materialı. Əsas inşaat materiallarından biri; 18.Mülki hüquqda bir tərəfin öz əmlakını əvəzsiz olaraq digər tərəfin mülkiyyətinə verməsi haqqında müqavilə; 20.«Dərviş Parisi partladır» filmində Dərviş Məstəli şah obrazını canlandıran aktyorun adı; 21.Bank əməliyyatlarının aparılması haqqında bildiriş.

**Soldan sağa:** 1.Afrikanın cənubunda etnik icma; 5.«Dördüncü hakimiyyət», müasir sivilizasiyanın ən mühüm amillərindən biri; 7.Balkan yarımadasında yerləşən ölkə; 8.Qədim türk mənşəli tayfanın adı; 10.Abşeron rayonunda qəsəbə; 11.Sakit Okeanın cənub hissəsində yerləşən Yeni Zelandiyanın mülkü olan arxipelaq; 12.Norveçin paytaxtı Oslo yaxınlığında ada; 14.Türk və altay mifologiyalarında ev tanrısı; 19.Şərab təchizatı ilə məşğul olan restoran işçisi; 21.Qadın adı; 22.Fiziki və ya mənəvi iztirab, əzabverici və ya xoşagəlməz hiss, əzab; 23.Türkiyə superliqasında mübarizə aparan futbol klubu; 24.Quranda mətnin böləndüyü kiçik həcmli parçalar; 25.Tüfəng və tapança patronlarını qoymaq üçün gözləri olan kəmər.



*«Dərviş Parisi partladır» filmindən epizod.*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Sadizm; 2.Naparya; 3.Aport; 4.Skanda; 5.Karib; 6.Kofola; 9.Asəf *(Zeynallı)*; 13.Rauf *(Hacıyev)*; 15.Rislinq; 16.Ukulan; 17.Manevr; 18.Anonim; 20.Maral; 21.Haiti. **Soldan sağa:** 1.Sintaksis; 5.Kuk; 7.Diplomat; 8.Arif *(Mirzəquliyev)*; 10.Zarat; 11.Desibel; 12.Kayra *(xan)*; 14.Ofort; 19.Kommuna; 21.Həsən *(Məmmədov)*; 22.Lirə; 23.Meridian; 24.Nal; 25.Birmingem.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

idman

# Azərbaycan velosipedçilərinin növbəti uğuru



Azərbaycanın trek velosipedi üzrə yığma komandasının üzvləri Portuqaliyada təşkil olunan nüfuzlu yarışda 2 qızıl və 1 bürünc medal qazanıblar.

Beynəlxalq Velosipedçilər İttifaqının 2-ci kateqoriyalı «Trofeu CAR Anadia» turnirində 10 ölkədən 100-dən artıq idmançı mübarizə aparıb.

Qızıl medalları ölkəmizə yığma komandamızın lideri Olqa İsmayılova qazandırıb. Həm 200, həm də 500 metr məsafəyə mübarizədə bütün rəqiblərindən üstün olan velosipedçimiz hər iki növdə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

«Trofeu CAR Anadia» turniri yığmamızın gənc üzvü Nicat Niftəliyev üçün xüsusilə əlamətdar olub. Səkkiz nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbinin yetirməsi olan velosipedçimiz 200 metr məsafəyə sprint yarışında bürünc medal qazanıb. Qeyd edək ki, bu, gələcəyinə böyük ümidlər bəslənilən 18 yaşlı idmançımızın beynəlxalq yarışlarda əldə etdiyi ilk medaldır.

# Güləşçilərimiz beynəlxalq turnirlərdə...

Fevralın 12-13-də İranın Kirmanşah şəhərində böyüklər arasında güləş üzrə ənənəvi «Təxti Kuboku» Beynəlxalq turniri keçiriləcək. Turnirdə sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan yığması da iştirak edəcək.

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, məşqçilər Rövşən Hacıyev və Siracuddin Eldarovun rəhbərliyi altında turnirə yollanacaq sərbəst güləş yığmamızın heyətində Pərviz İbrahimov, Etibar Hacıyev (hər ikisi 57 kq), Qalib Əliyev (61 kq), Coşqun Əzimov (65 kq), Kamran Yunusov (70 kq), Mircəfər Murtuzlu (74 kq), İbrahim Yusubov və Məhəmməd Abdulxaliqov (hər ikisi 86 kq) yer alıblar.

Yunan-Roma güləşi üzrə ölkəmizi məşqçilər Əfsər Namazəliyev və Fuad Rəhmaninin rəhbərliyi altında Taleh Məmmədov, Orxan Əhmədov, Murad Bazarov, Sakit Quliyev (hamısı 59 kq), Azad Əliyev, Rövşən Tağıyev (hər ikisi 66 kq), Fuad Əliyev (80 kq) və Türmən Eyyubov (98 kq) təmsil edəcəklər.

...Fevralın 14-15-də isə İsveçin Klippan şəhərində qadın güləşi üzrə açıq beynəlxalq turnir keçiriləcək. Baş məşqçi Semyon Çterev və böyük məşqçi Konstantin Konorevin rəhbərliyi altında İsveçə Mariya Stadnik (48 kq), Anjela Doroqan 53 kq), İrina Netreba (58 kq), Yuliya Ratkeviç, Natalya Sinişin (hər ikisi 60 kq), Raqnetta Qurbanzadə (63 kq), Nadya Muşka Sementsova (69 kq) və Gözəl Zutova (75 kq) yollanacaqlar.

# Dünyanın ən güclüləri yenidən Şəmkirdə...

*Azərbaycanın dünya səviyyəli şahmatçısı, beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunmuş II ənənəvi superturnirin iştirakçılarının adları məlum olub.*

Xatirə turniri ötən il olduğu kimi, bu ilin aprel-may aylarında Şəmkir şəhərində keçiriləcək. Yarışın dəqiq tarixi isə bir qədər sonra açıqlanacaq.

Ənənəvi superturnirin budəfəki iştirakçıları daha güclü şahmatçılardan ibarət olacaq. Beləliklə, planetin ən titullu qrossmeysterləri - dünya çempionu Maqnus Karlsen (Norveç, 2865), Fabiano Karuano (İtaliya, 2811), Veselin Topalov (Bolqarıstan, 2800), sabiq dünya çempionu Vişvanatan Anand (Hindistan, 2797), Aniş Giri (Niderland, 2797), Uesli So (ABŞ, 2788), Vladimir Kramnik (Rusiya, 2783), Maksim Vaşye-Laqrav (Fransa, 2775), Azərbaycan şahmatçıları Şəhriyar Məmmədyarov (2759) və Teymur Rəcəbov (2731) bu mötəbər turnirdə qarşı-qarşıya gələcəklər:

Xatırladaq ki, Vüqar Həşimovun xatirəsinə həsr olunmuş ilk beynəlxalq turnir ötən ilin aprelində keçirilib və Norveç şahmatçısı Maqnus Karlsenin qələbəsi ilə başa çatıb.

# «Bakı-2015» Madridin «Atletiko» klubuna uğur gətirdi

Fevralın 7-də İspaniya La Liqasının 22-ci turunda Madridin iki futbol klubu - «Atletiko» və «Real» komandaları üz-üzə gəliblər. Üzərində «Bakı-2015» loqotipi olan formalarla ilk oyuna çıxan «Atletiko» futbolçuları doğma meydanda - «Visente Kalderon» stadionunda kral klubunu 4:0 hesabı ilə darmadağın ediblər.




Madrid derbisinin qalibləri böyük hesablı qələbəyə 14-cü dəqiqədə Tyaqonun qolu ilə başlayıblar. Ev sahibləri 18-ci dəqiqədə Saul Niguezin qolu ilə hesab arasındakı fərqi artırıblar - 2:0. Qarşılaşmanın ikinci hissəsində də hücumlarını davam etdirən «Atletiko» futbolçuları 67-ci dəqiqədə Antoin Qrizmanın, 89-cu dəqiqədə isə Mario Mandzukiçin qolları ilə «Real» üzərində qələbəni rəsmiləşdiriblər. «Atletiko» komandası bu qələbə sayəsində «Real» ilə aradakı xal fərqini dördə endirib.

Qeyd edək ki, fevralın 7-də «Bakı-2015» ilk Avropa Oyunlarının Təşkilat Komitəsi «Atletiko» Madrid komandasının oyunçularının formalarında birinci Avropa Oyunlarının loqotipinin əks olunması haqqında müqavilə imzalamışdı. Beləliklə, üzərində yeni loqotipin - «Baku-2015»in əks olunduğu forma «Atletiko» futbolçularına əzəli rəqibləri «Real» ilə oyunda böyük uğur gətirib.

mozaika

ekologiya

## Dənizdəki həyatın sabahı...



ABŞ-ın bir neçə universitetinin ekoloq və bioloqları həyəcanlı və düşündürücü açıqlama veriblər. Tədqiqatçıların sözlərinə görə, gündən-günə artan insan fəaliyyəti son nəticədə dənizlərdə həyatın yox olmasına gətirib çıxaracaq. Alimlər bildiriblər ki, insanlar öz hərəkətlərinə nəzarət etməsələr və təbiəti qorumaq barədə düşünməsələr, 150 ildən sonra dünya okeanındakı canlılar və bitkilər məhv ola bilər. Tədqiqatçılar artıq okeanlarda həyatın yox olmasının ilk əlamətlərini də qeyd ediblər. Buna misal olaraq mərcan qayalıqları göstərilib. Okeanların həyat fəaliyyətində böyük rol oynayan mərcan qayalıqlarının artıq 40% azaldığı qeyd edilib.

Tədqiqatçılar əlavə ediblər ki, dəniz faunasının məhv olmasında temperaturun yüksəlməsi da başlıca rol oynayır. Belə ki, dəniz canlıları yaşamaq üçün daha sərin yer axtarmağa məcbur olur.

Alimlər daha sonra bildiriblər ki, dəniz dibindən və okeanlardan faydalı mineralların çıxarılması suların çirklənməsinə səbəb olur. Bu da dənizdə həyatın yox olmasına gətirib çıxara bilər.

araşdırma

## Portağal şirəsi portağalın özündən faydalıdır



Bioloji fayda insan orqanizminin həmin maddələri nə dərəcədə yaxşı həzm etməsidir. Almaniyanın Hoenahaym Universitetinin (Ştutqart) bioloqları müəyyən ediblər ki, portağal şirəsində karotinoidlərin və flavonoidlərin bioloji faydası bu sitrus bitkilərinin özü ilə müqayisədə xeyli yüksəkdir.

Tədqiqatların nəticələri «Journal of Agricultural and Food Chemistry» jurnalında dərc olunub. Alimlər portağalın və klassik üsulla çıxarılan portağal şirəsinin (həmçinin ani pasterizasiya üsulu ilə) birbaşa qomogenatının kimyəvi tərkibini müqayisə ediblər. Xromotoqrafiya göstərib ki, prosesin müxtəlif mərhələlərində flavonoid, karotinoid, C vitamini və bir sıra digər maddələrin konsentrasiyası dəyişir.

Yeni məlumatlar köhnələri təsdiqləyib. Əvvəlki məlumatlara görə, şirə çəkilməsi C vitamininə əsla təsir etməyib. Karotinoid və flavonoidlərin konsentrasiyası ciddi şəkildə azalsa da, bioloji faydası xeyli artıb. Məsələn, portağalda karotoinoidlərin miqdarını 100 faiz götürsək, orqanizm onun şirəsindən təqribən 30 faizini qəbul edəcək, portağal yesə, həmin rəqəm cəmi 12 faiz təşkil edəcək.

texnologiya

## Facebook 11 ildə

Hazırda dünyada 3 milyard internet istifadəçisinin 1,39 milyardı Facebooka daxil olur. Gündəlik Facebookdan 890 milyon insan istifadə edir. Ümumi istifadəçilərin 86%-i - 1,19 milyardı isə bu sosial şəbəkəyə mobil cihazlardan daxil olur.

Dünyada ən böyük auditoriyaya «Facebook for Every Phone» səhifəsi malikdir. Onun istifadəçilərinin sayı 547 milyon 137 min nəfərdən artıqdır. Brendlər arasında isə Coca-Cola şirkəti birincidir. Bu səhifəyə 93 milyon 354 min nəfər abunə olub. İkinci və üçüncü yerlərdə Makdonalds (55 612 757) və RedBull (45 934 453) şirkətləri dayanır. Tanınmış şəxslərin səhifələri arasında isə ABŞ Prezidenti Barak Obamanın rəsmi profili ən böyük auditoriyaya malikdir. Bu səhifəni 44 milyon 922 mindən artıq insan izləyir.

Azərbaycanda Facebook istifadəçilərinin sayı 1 milyon 320 min nəfərdir. Facebookun Azərbaycan dilinə tərcüməsinə 2008-ci ilin yay aylarından başlanılıb. 2009-cu ildən sayt rəsmi olaraq Azərbaycan dilində də fəaliyyət göstərir. Ölkədə müxtəlif şirkətlər, özəl və dövlət qurumları Facebookda aktiv fəaliyyət göstərir.




2004-cü ildə Harvard Universitetinin tələbəsi Mark Zukerberq «The Facebook» adlı sosial şəbəkəni istifadəyə verib. İlk vaxtlar Facebook yalnız Harvard Universitetinin tələbələri üçün nəzərdə tutulurdu. 2005-ci ildə şirkət «facebook.com» domenini 200 min dollara satın alıb. 2006-cı il sentyabrın 26-da sosial şəbəkə bütün internet istifadəçilərinin ixtiyarına verilib.

sağlam hayat tarzi

## Normadan artıq yatmaq sağlamlığa ziyandır

*İstirahət günləri normadan artıq yatmaq, bəlkə də insanların ən zəif yerlərindən biridir. Alimlər artıq yuxunun piylənməyə səbəb olduğunu bildirirlər.*

Britaniyanın «Daily Mail» qəzetinin məlumatına görə, hər hansı şəxs nə qədər çox yatırsa, bir o qədər də piylənmə ilə əlaqədar xəstəliklər qazanır.

Mütəxəssislərin rəyincə, iş və istirahət günlərindəki yuxu müddətinin fərqi bədən üçün təhlükə törədir. Onlar bunu 800-dən çox könüllü insan üzərində araşdıraraq sübut ediblər. Əvvəlcə könüllülərin çəkisi, boyu ölçülüb, onlardan qan nümunələri götürülüb. Sonra könüllülər arasında neçə saat yatmaları haqqında sorğu aparılıb və maraqlı nəticələr alınıb.



Məlum olub ki, adi iş günü ilə müqayisədə istirahət günü iki saat artıq yatanların çəkiləri artır və onlarda diabet xəstəliyinə meyillilik yaranır. Mütəxəssislər vəziyyətdən çıxış yolu üçün fəal həyat sürməyi, səhər tezdən idman zallarına getməyi məsləhət bilirlər.

**Müdriklər deyib ki...**



***«Bir insanın necə güldüyündən nə tərbiyənin, nəyə güldüyündən nə ağlın sahibi olduğunu anlarsan».***

***Cəlaləddin Rumi***